# Zelenski Vaşinqtona ABŞ-nin hərbi təyyarəsi ilə gedir



**Ukrayna Prezidenti Volodimiz Zelenskinin Vaşinqtona getməsi üçün ABŞ hərbi təyyarə ayırıb.**

APA-nın xəbərinə görə, bu barədə CNN məlumat yayıb.

Kanal bildirir ki, hazırda Ukrayna prezidenti yoldadır. Onun Ağ Evə saat 14.00-da (Bakı vaxtı ilə 23.00) çatması gözlənilir.

Ağ Evin Milli Təhlükəsizlik Şurasının Strateji Kommunikasiyalar Direktoru Con Kirbi bildirib ki, ABŞ səfər müddətində Zelenskinin təhlükəsizliyini təmin etmək üçün rəsmi Kiyevlə sıx koordinasiyada işləyir.



# Türkiyə Gəncəyə yeni Baş konsul təyin edib

**Türkiyə Gəncəyə yeni Baş konsul təyin edib.**

"Report"un Qərb bürosunun məlumatına görə, müvafiq qərarla bu vəzifəyə Rəcəb Öztop təyinat alıb.

Diplomat vəzifəsinin icrasına 2023-cü il yanvarın 1-də başlayacaq.

*Qeyd edək ki, Türkiyənin Gəncədəki Baş konsulu Zəki Öztürkün səlahiyyət müddəti dekabrın 20-də başa çatıb.*


❒ № 234 (5755), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 dekabr 2022-ci il (cümə axşamı)





# İctimaiyyətdən dəstək

Xankəndi-Laçın yolundakı aksiya iştirakçılarına isti geyimlər paylanılıb

**Hazırda hava şəraitinin soyuq olmasına baxmayaraq, Qarabağda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası davam edir.**

Sərt hava şəraiti nəzərə alınaraq, aksiya iştirakçılarına ictimaiyyətdən müxtəlif dəstək göstərilir.

Belə ki, bu gün "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri ictimai dəstək nəticəsində toplanmış papaq, əlcək, şərf və digər isti geyimləri aksiya iştirakçılarına paylayıblar.

Sərt hava şəraitinin davam etməsi nəzərə alınaraq qarşıdakı günlərdə də aksiya iştirakçıları müvafiq isti geyimlərlə təmin olunacaq.

Hazırda aksiya iştirakçıları "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!" şüarlarını səsləndirirlər.

(səh.2)



# Serbiya və Azərbaycan strateji tərəfdaşdır

Hər iki dövlət öz resurslarına arxalanır, müstəqil siyasət aparır

**"Belqradda qəbul etdiyimiz qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Serbiya lideri Aleksandar Vuçiçlə mətbuata birgə bəyanatında bildirib. Dövlət başçısı Belqradda qəbul edilən qərarların tezliklə yerinə yetirilməsini arzuladığını deyib:**

"Nəinki arzulayırıq və eyni zamanda hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi. Bilirəm ki, bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olmuşlar və bu gün bu təmaslar davam edir.

(səh.2)

# 30 il susublar

İndi BMT-dən səslənən fikirlər Azərbaycanı maraqlandırmır



**Ermənistan tərəfinin iddiası ilə BMT-nin Təhlükəsizlik Şurasında Laçın yolundakı aksiya müzakirəyə çıxarılıb.**

Müzakirədə BMT rəsmiləri, şuraya üzv dövlələrin nümayəndələri, eləcə də Ermənistan və Azərbaycanın təmsilçiləri çıxış ediblər. Qurumun baş katibinin köməkçisi Miroslav Yença öncə tərəflər arasında indiyədək aparılmış vasitəçilik və dialoq səylərini alqışlayıb. Diplomatik təmaslara baxmayaraq, Laçın yolunda yaranmış durumdan "təəssüfünü" ifadə edən Yença həm Ermənistan, həm də Azərbaycan tərəfinin BMT rəhbərliyinə məktublar ünvanladığını və bu məktublarda durumun fərqli təsvirini qeyd edib.

(səh.2)

# Vasif Talıbov vəzifədən uzaqlaşdırıldı

Bakı ilə Ankara İran üzərində gizli mübarizənin bu mərhələsindən də qalib çıxdı




**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qapalı iclası keçirilib və Ali Məclisin sədri Vasif Talıbov istefa verib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov bildirib ki, Vasif Talıbov səhhəti ilə bağlı müraciətinə baxılmasını xahiş edib. Qərar sessiya iştirakçılarının diqqətinə çatdırılıb və səsə qoyularaq qəbul olunub.

V.Talıbovun vəzifələri müvəqqəti olaraq birinci müavini Azər Zeynalova tapşırılıb. Məlumat üçün deyək ki, Vasif Talıbov 1995-ci ilin dekabr ayından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışıb. İclasla bağlı yayılan rəsmi mətn və fotolarda bir sıra məqamlar diqqət çəkib. Toplantıda Vasif Talıbovun özünün iştirak etmədiyi bəlli olub. Deputatlar Vasif Talıbov olmadan onun ərizəsini səsə qoyublar. İclasda 45 deputatdan 38-nin iştirak etdiyi qeyd olunub.

(səh.3)

# Birgə hərbi təlimlər keçiriləcək

Azərbaycan,Türkiyə və Gürcüstan hərbi əməkdaşlığı Cənubi Qafqazda sülhün, sabitliyin əsas qarantıdır




**Dünən Türkiyənin Kayseri şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib.**

Görüşdə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze iştirak ediblər. Toplantıda hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinin vacibliyi qeyd olunub.

(səh.3)



# Şuşa-Xankəndi yolundakı aksiya nəticə verir

Bunu erməni separatçı-terrorçuları da anlamağa başlayıblar

**Şuşa-Xankəndi yolunda keçirilən aksiyada iştirakçılar "humanitar yardım" adı altında qanunsuz daşımaların da qarşısını alır.**

Məlumatlara görə, yoxlanılmadan keçmək istəməyən beş yük avtomobili buraxılmayıb. Bu məsələ iki məqamı ön plana çıxarır. Qarabağa hələ də qanunsuz yüklərin daşınmasına cəhdlər edilir.

Görünür, iştirakçıların "humanitar yardım"lara şərait yaratmasından sui-istifadə etmək istəyiblər və istisna deyil ki, yoxlamaya imkan verilməyən yük maşınlarında silah-sursat olub.

(səh.5)

# 2 nəfər ölüb

129 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 129 yeni yoluxma faktı qeydə alınıb, 90 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 825 656 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 815 034 nəfər müalicə olunaraq sağalıb, 9 999 nəfər vəfat edib, aktiv xəstə sayı 623 nəfərdir.*

# Şagird və tələbələr üçün sağlam qida menyusu tərtib edilməlidir

Bunu sağlam qida mütəxəssisləri, düzgün elmə yiyələnmiş texnoloqlar edə bilər



**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ölkə üzrə fəaliyyət göstərən ali təhsil və ümumtəhsil müəssisələrində yoxlamalar həyata keçirir.** AQTA-nın məlumatına görə, cari ilin noyabr ayının 14-dən başlayan yoxlamalar çərçivəsində ali təhsil və ümumtəhsil müəssisələrində qidalanmanın qanunvericilikdə nəzərdə tutulan normalara uyğun təşkil edilməsi, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsi vəziyyətinin qiymətləndirilməsi, həmçinin yeyinti məhsullarının tədarük prosesi, onların saxlanması, daşınması, realizə olunması, markalanma və qablaşdırılmasına dair tələblərə əməl edilməsi yoxlanılır.

(səh.7)



# "İndiki nəsil başqa cür həyat tərzi axtarır"

"Bu gün tələbələrimizin iş tapmağı qaranlıq otaqda qara pişik axtarmağa bənzəyir"

(səh.4)



# Etik davranış üzrə müvəkkil vəzifəsi yaradılır

Əlimәmməd Nuriyev təşəbbüsün müsbət, nəticəninsə gözlənilən olmadığını bildirdi

(səh.3)

# Serbiya və Azərbaycan strateji tərəfdaşdır

## Hər iki dövlət öz resurslarına arxalanır, müstəqil siyasət aparır



“Gələn ildən Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixracı üçün əməli addımlar atılacaq”

**“Belqradda qəbul etdiyimiz qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq”. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Serbiya lideri Aleksandar Vuçiçlə mətbuata birgə bəyanatında bildirib. Dövlət başçısı Belqradda qəbul edilən qərarların tezliklə yerinə yetirilməsini arzuladığını deyib:**

”Nəinki arzulayırıq və eyni zamanda hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi. Bilirəm ki, bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olmuşlar və bu gün bu təmaslar davam edir. Bir sözlə, biz istəyirik ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun”.

Ölkə rəhbəri qeyd edib ki, Vuçiçin rəhbərliyi ilə Serbiyada olan vəziyyət, gedən inkişaf məni çox təsirləndirdi: ”Bir ay bundan əvvəl Prezident Vuçiçin dəvəti ilə mən Serbiyada rəsmi səfərdə olmuşam. Fürsətdən istifadə edərək mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda təəssüratlarımı bölüşmək istəyirəm. Prezident Vuçiçin rəhbərliyi ilə Serbiyada olan vəziyyət, gedən inkişaf məni çox təsirləndirdi. Prezident Vuçiçin uzaqgörən siyasəti nəticəsində Serbiya hərtərəfli inkişaf edir, həm şəhərsalma sahəsində, eyni zamanda iqtisadi və sənaye inkişafı sahəsində, kənd təsərrüfatı sahəsində. Bu bizim gələcək əməkdaşlığımız üçün yeni imkanlar yaradır. Çünki həm Serbiya, həm Azərbaycan öz resurslarına arxalanan ölkələrdir, müstəqil siyasət aparan ölkələrdir və bir-biri ilə six əlaqədə olan ölkələrdir”.

**Dövlət başçısı bildirib ki, bir çox sahələr üzrə əməkdaşlığın artıq böyük tarixi var:** ”İlk növbədə bildirməliyəm ki, Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanmışdır. Biz hər zaman birbirimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq. Biz beynəlxalq hüququn tərəfdarıyıq və əminik ki, ölkələr arasında münasibətlər ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənə bilər. Bu sahədə dünyada müşahidə olunan ikili standartların təzahürləri, əlbəttə ki, bizi çox narahat edir. Beynəlxalq hüququn norma və prinsipləri bütün ölkələr üçün əsas olmalıdır”.

**Prezident vurğulayıb ki, əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsi artacaq:** ”Hələ ki o, istənilən səviyyədə deyil. Nəqliyyat-logistika sahəsində böyük potensial var. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizləri keçir, burada da uzlaşma və bağlantının yaradılması üçün bizim müvafiq qurumlar fəal işləməlidir. Aidiyyəti qurumlar arasında təmaslar artıq yaranıb”.

Prezident bəyan edib ki, energetika sektoru əməkdaşlığımızın bir hissəsidir: ”Son vaxtlar bu sahə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə. Həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılmışdır. Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əminəm ki, əməli addımlar atılacaqdır. Onu da bildirməliyəm ki, dörd gün bundan əvvəl Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanmışdır. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək. Bütün bunlar yeni imkanlar, yeni üfüqlər açır və biz bu sahədə, əlbəttə ki, ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəyik”.

**İsmayıl**

# 30 il susublar

## İndi BMT-dən səslənən fikirlər Azərbaycanı maraqlandırmır



“Əsas odur ki, yola enmişik və bölgəyə silah və mina daşıyan erməni separatçılar rahatlıqlarını itiriblər”

**Ermənistan tərəfinin iddiası ilə BMT-nin Təhlükəsizlik Şurasında Laçın yolundakı aksiya müzakirəyə çıxarılıb. Müzakirədə BMT rəsmiləri, şuraya üzv dövlələrin nümayəndələri, eləcə də Ermənistan və Azərbaycanın təmsilçiləri çıxış ediblər. Qurumun baş katibinin köməkçisi Miroslav Yença öncə tərəflər arasında indiyədək aparılmış vasitəçilik və dialoq səylərini alqışlayıb.**

Diplomatik təmaslara baxmayaraq, Laçın yolunda yaranmış durumdan ”təəssüfünü” ifadə edən Yença həm Ermənistan, həm də Azərbaycan tərəfinin BMT rəhbərliyinə məktublar ünvanladığını və bu məktublarda durumun fərqli təsvirini qeyd edib. Rusiya sülhməramlılarına istinad edən BMT rəsmisi bəzi humanitar və tibbi ləvazimatların yoldan keçdiyini qeyd edərək ehtiyacı olan əhalinin sərbəst hərəkət etməsinin və əsas xidmətlərə çıxışının təmin edilməsinin vacibliyini vurğulayıb. Daha sonra müzakirədə Fransa, Birləşmiş Ərəb Əmirlikləri, Albaniya, Çin, Amerika Birləşmiş Ştatlar və digər ölkələrin nümayəndələri çıxış ediblər. Nümayəndələr tərəflər arasında dialoqun gücləndirilməsinə çağırıblar. Amerika səfiri Robert Vud Laçın yolunda yaranan maneələrdən ölkəsinin ”dərin narahatlıq” keçirdiyini bildirib. Deyib ki, Laçın yolundan istifadəyə maneələr sülh prosesini geriyə salır. Çıxışların ardınca söz Ermənistan və Azərbaycan nümayəndələrinə verilib. Ermənistanın BMT-dəki daimi nümayəndəsi M.Marqaryan Azərbaycanı ”Qarabağ əhalisini qeyri-qanuni blokada”da saxlamaqda ittiham edərək rəsmi Bakının hərəkətlərini 2020-ci il 9 noyabrda imzalanmış üçtərəfli bəyanatın prinsiplərinə zidd adlandırıb. Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev bütün ittihamlara tutarlı cavab verib. O, Ermənistanın Təhlükəsizlik Şurasından sui-istifadə edərək ”manipulyasiya” və ”saxtalaşdırma” kampaniyası apardığını bildirib. Y.Əliyev bəzi qüvvələrin BMT platformasından istifadə edərək ölkəsinin suverenliyinə və əzazi bütövlüyünə xələl gətirməsinin qəbuledilməz olduğunu söyləyib. O, Qarabağın 30 ilə yaxın Ermənistan qüvvələrinin işğalı altında olduğunu xatırladaraq BMT Təhlükəsizlik Şurasının bununla bağlı qəbul etdiyi qətnamələri diqqətə çatdırıb: ”Yerli sakinlərin istifadəsi üçün nəzərdə tutulmuş əmtəə təchizatı və vacib tibbi ləvazimatların daşınmasına heç bir əngəl yoxdur”. Azərbaycan rəsmisi İrəvanı Laçın yolundan qeyri-qanuni məqsədlər üçün istifadə etməkdə günahlandırıb.

> “Ermənistanla Qarabağı birləşdirən yolda etirazımız yataqlarda monitorinqə icazə verilən günə qədər sürəcək”

Onun sözlərinə görə, bu yoldan istifadə olunmaqla Azərbaycan ərazisində minalar yerləşdirilib və ölkənin təbii resursları istismar olunub: ”BMT TŞ-yə üzv dövlətlərin deməli olar ki, bütün bəyanatlarında üçtərəfli bəyanat üzrə öhdəliklərin yerinə yetirilməsinə dair çağırış olub. Ermənistanın sözügedən sənədi açıq-aşkar pozduğunu nəzərə alaraq, BMT TŞ-nin üzvlərinin bu cür çağırışları nəhayət, Ermənistan tərəfindən eşidilməli və onlara əməl olunmalıdır. Quruma üzv olan bəzi dövlətlərin qərəzli, birtərəfli mövqe nümayiş etdirməkdən çəkinməməsi dərin məyusluq doğurur. Azərbaycan ərazisinin bir hissəsinə münasibətdə yanlış istinad edilməsi xüsusi narahatlıq mənbəyidir”.

Şuşa-Xankəndi yolunda keçirilən aksiyada etiraz edənlər də bəyanat yayaraq aksiyanın BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən qərəzli şəkildə təqdim edilməsini qınayıblar.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, haqlı olduğumuz halda yenə bizi haqsız duruma sürükləmək istəyirlər. Analitik qeyd edib ki, BMT Təhlükəsizlik Şurasındakı müzakirələr və Qərb dövlətlərinin ”yolun açılmasıyla” bağlı Azərbaycana çağırışları göstərir ki, izahlarımızı qulaqardına vururlar:** ”Narahat olmağa dəyməz, qulaqlarını tıxayaraq bizi eşitmək istəməyənlər həmişə olacaq. Sadəcə, diplomatlarımız daha çox çalışsaydılar, nəticə bizim üçün fərqli ola bilərdi. Hadisələrin inkişafının bir neçə variantı var. Birinci odur ki, Ermənistanla Qarabağı birləşdirən yolda etirazımız yataqlarda monitorinqə icazə verilən günə qədər sürəcək. Bu zaman müxtəlif ölkələrin Azərbaycana qarşı təzyiqləri davam edəcək. Ancaq bizi heç nəyə məcbur edə bilməzlər. Ermənistan 28 il BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirmədi və Qərb dövlətlərindən heç biri buna görə İrəvana təzyiq etmədi. BMT qətnamələri yerinə yetirilmədisə, biz niyə bir qisim dövlətin ”çağırışını” yerinə yetirməliyik? Digər yandan hərbçilərimiz artıq Ermənistanla Qarabağı birləşdirən yolda yerləşiblər. Hansısa mərhələdə sivil etiraza fasilə versək belə nəticəni xeyrimizə dəyişmişik. Azərbaycanlı hərbçilər yoldakı postda bölgəyə daxil olan və çıxan maşınları rahat şəkildə yoxlayacaqlar. Yoldan sivillər keçəcək, silah, sursat, mina və cinayətkarlar keçə bilməyəcək. Bundan sonra ermənilərin ”yol bağlıdır” yalanı işləməyəcək. Yolu nəzarətə götürsək də, yataqların monitorinq məsələsi aktuallığını qoruyacaq.

Başqa variantlar da mümkündür. Əsas odur ki, yola enmişik və bölgəyə silah və mina daşıyan erməni separatçılar rahatlıqlarını itiriblər. Növbəti mərhələdə ”yol bağlı deyil, nəzarət altındadır, sivillər və xəstələr istifadə edə bilərlər” tezisimizi sübutlarla, görüntülərlə beynəlxalq aləmə qəbul etdirməliyik”.

**İsmayıl Qocayev**



**Hazırda hava şəraitinin soyuq olmasına baxmayaraq, Qarabağda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası davam edir.**

”Report”un aksiyanı işıqlandıran əməkdaşı xəbər verir ki, sərt hava şəraiti nəzərə alınaraq, aksiya iştirakçılarına ictimaiyyətdən müxtəlif dəstək göstərilir.

# İctimaiyyətdən dəstək

## Xankəndi-Laçın yolundakı aksiya iştirakçılarına isti geyimlər paylanılıb



Belə ki, dünən ”Regional İnkişaf” İctimai Birliyinin könüllüləri ictimai dəstək nəticəsində toplanmış papaq, əlcək, şərf və digər isti geyimləri aksiya iştirakçılarına paylayıblar.

Sərt hava şəraitinin davam etməsi nəzərə alınaraq qarşıdakı günlərdə də aksiya iştirakçıları müvafiq isti geyimlərlə təmin olunacaq.

Hazırda aksiya iştirakçıları ”Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!”, ”Azərbaycan vahiddir, sərvətinə sahibdir!”, ”Ekoloji cinayətə son!”, ”Stop ekoterror!” şüarlarını səsləndirirlər.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası 10 gündür davam edir.

Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və ”AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

# Ermənistan Laçın yolu ilə bağlı yalan məlumatlar yayır

## Jalə İsmayılova: “Aksiya dinc xarakter daşıyır, heç bir ”blokada” yoxdur”

**Ermənistan Laçın yolu ilə bağlı yalan məlumatlar yayır.**

**Bu barədə Trend-in Şuşaya ezam olunmuş müxbirinə Laçın yolunda keçirilən etiraz aksiyasının iştirakçılarından biri - ”EkoSfera” Sosial-ekoloji Mərkəzinin əməkdaşı Jalə İsmayılova deyib.**




”Təşkilatımızın nümayəndələri aksiyanın ilk günündən buradadırlar. Artıq onuncu gündür ki, dinc etiraz aksiyası davam edir və bütün bu günlər ərzində humanitar yardım maşınlarının, təminat maşınlarının, təcili yardım maşınlarının keçməsinin şahidi oluruq. Təbii sərvətlərin qeyri-qanuni istismarına qarşı dinc etirazımızın başqa prizmadan təqdim olunmasından narahatıq. Ermənistan var gücü ilə ”humanitar fəlakət” mühiti yaratmağa çalışır, Laçın yolu ilə bağlı yalan məlumatlar yayır. Amma mən bir daha qeyd etmək istərdim ki, aksiya dinc xarakter daşıyır, heç bir ”blokada” yoxdur”, - deyə o bildirib.

Jalya İsmayılova qeyd edib ki, etirazçılar Azərbaycan torpaqlarında qanunsuz iqtisadi fəaliyyətin, ölkənin təbii sərvətlərinin qeyri-qanuni istismarının dayandırılmasını tələb etməkdə davam edirlər.

”Biz öz ərazilərimizdə müstəqil monitorinq apara bilməliyik, çünki biz öz torpağımızdayıq”, - deyə o əlavə edib.

# Vuçiçi Bakıya gətirən əsas səbəb var

## “Serbiya Prezidenti Azərbaycan vasitəsilə Cənubi Avropanın enerji təhlükəsizliyini təmin etməyə çalışır”



**Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olub. Təkbətək görüş başa çatdıqdan sonra hər iki ölkə rəhbəri mətbuata bəyanatlarla çıxış ediblər.**

Prezident İlham Əliyev qeyd edib: ”Şadam ki, əziz dostum mənim dəvətimi qəbul edib və bir ay keçmədən Bakıya səfər edib. Bu onu göstərir ki, əlaqələrimizin dinamikası doğrudan da çox müsbətdir. Biz keçən ay Belqradda qəbul etdiyimiz qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq. Nəinki arzulayırıq və eyni zamanda hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi. Bilirəm ki, bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olublar və bu gün bu təmaslar davam edir. Bir sözlə, biz istəyirik ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun”.

**Görüşün ”kod”larını ”Şərq”ə açan beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli vurğulayıb ki, bu dəqiqə Vuçiçin ölkəsinin taleyi Azərbaycandan asılıdır:** ”Serbiya Prezidenti Azərbaycan vasitəsilə Cənubi Avropanın enerji təhlükəsizliyini təmin etməyə çalışır. Bir az əvvələ baxsaq, bizim ”Yaşıl enerji”, İtaliyaya uzanan neft kəmərləri və s. kimi sazişlərimiz baş tutub. Bunlar məsələnin bir tərəfidir. Amma Vuçiçi Bakıya gətirən əsas səbəb şübhəsiz, Kosova məsələsidir.

O, Azərbaycandan rica edir ki, rəsmi Bakı Türkiyədən Ərdoğanın Kosovaya bayraqdar satmamasını xahiş etsin. Bütövlükdə bu iki ölkənin münasibətlərinə təsir göstərə bilər. Əslində Vuçiç Kosovanı dövlət olaraq hesab etmir.

Ümumiyyətlə, Serbiya bu məsələdə rəsmi Bakı və Ankaranın onun tərəfində durmağına ümid edir. Bu səbəblə də Serbiyanın dövlət başçısı Bakıya sırf Türkiyədən rica və Kosova üzərinə xahişə söykənən istəklə gəlib”.

**Nihat Müzəffər**




# Birgə hərbi təlimlər keçiriləcək

## Azərbaycan,Türkiyə və Gürcüstan hərbi əməkdaşlığı Cənubi Qafqazda sülhün, sabitliyin əsas qarantıdır

**Dünən Türkiyənin Kayseri şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib. Görüşdə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze iştirak ediblər.**

Toplantıda hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinin vacibliyi qeyd olunub. Həmçinin üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda Türkiyə, Azərbaycan və Gürcüstan müdafiə nazirləri Kayseridə keçirilən üçtərəfli görüşün nəticələrinə dair yekun sənəd imzalayıblar.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, nazir Akar 1918-ci ildə Osmanlı-Azərbaycan-Gürcüstan arasında imzalanmış tarixi müqavilənin surətini hədiyyə olaraq həmkarlarına təqdim edib.

Bununla yanaşı, Türkiyənin milli müdafiə naziri Hulusi Akarın Azərbaycanın müdafiə naziri general Zakir Həsənov və gürcü həmkarı Xuanşer Burçuladze ilə də ikitərəfli görüşləri baş tutub. İkitərəfli görüşlərdə qeyd olunub ki, danışıqların əsas mövzuları xüsusilə Türkiyə, Azərbaycan və Gürcüstanda sülh, sabitlik və regionun gələcəyi üçün atılacaq addımlardır. Türkiyənin milli müdafiə naziri Hulusi Akarla Azərbaycanın müdafiə naziri general Zakir Həsənov arasında keçirilən görüşdə vurğulanıb ki, iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətləri digər sahələrə olduğu kimi hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etməkdədir. Azərbaycan və Türkiyə arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə inkişaf etdiriləcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olunub.

Məlumat üçün bildirək ki, Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin növbəti üçtərəfli görüşü Azərbaycanda keçiriləcək. Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov deyib ki, birgə hərbi təlimlərin keçirilməsi həm enerji layihələrinin infrastrukturunun mühafizəsi, həm də regionun sabitliyi üçün son dərəcə vacibdir. Nazir həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycan xalqına dəstəyinə görə Türkiyə xalqına, milli müdafiə naziri Hulusi Akar və Türkiyə Silahlı Qüvvələrinin bütün heyətinə təşəkkür edib. Bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında müdafiə sahəsində əməkdaşlıq daha da inkişaf edir: "Azərbaycan bütün qonşu ölkələrlə münasibətlərin inkişafında maraqlıdır".

Türkiyənin milli müdafiə naziri Hulusi Akar da deyib ki, Türkiyə-Azərbaycan-Gürcüstan əməkdaşlığı bölgədə davamlı sülhə ciddi töhfələr verəcək: "Ölkələrimiz arasında strateji tərəfdaşlıq və əməkdaşlığın bundan sonra da genişləndirilməsi hamımız üçün əhəmiyyətlidir. Qlobal və regional təhdidlərin ciddi şəkildə artdığı bir dövrdə Azərbaycan, Gürcüstan və Türkiyə arasında inkişaf etdirilən bu əməkdaşlıq digər ölkələr üçün də nümunə olacaq səviyyədədir. Hərbi əməkdaşlıq sahəsində ciddi məsafə qət etdik və bunun bəhrəsini görürük. Ermənistanın Azərbaycan və Türkiyənin uzatdığı sülh və dostluq əlini tutmasını, təxribatlardan çəkinməsini və sülh danışıqlarına yönəlməsini istəyirik".

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilov "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan regionda sülh və sabitliyin təmin olunması məqsədilə bəzi region dövlətləri, xüsusilə də Gürcüstan və Türkiyə ilə hərbi əməkdaşlıq həyata keçirir. Ekspert vurğulayıb ki, bu formatda hər üç ölkənin** cıl ordularından biri kimi formalaşmasında qardaş Türkiyənin böyük rolu var. Bu həqiqət həm Müzəffər Ali Baş Komandan İlham Əliyev, həm də Azərbaycanın müdafiə naziri general Zakir Həsənov tərəfindən dəfələrlə qeyd edilib. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Ordusunda Türkiyə ordu sisteminə keçid məsələsi ciddi şəkildə gündəmə gəldi. Hazırda bu istiqamətdə konkret addımlar atılmaqda, ciddi işlər görülməkdədir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə tam keçidinin başa çatması ordumuzu, onun döyüş qabiliyyətini daha da gücləndirəcək, müdafiə qabiliyyətimizi artıracaq".

**C.Xəlilov qeyd edib ki, ümumiyyətlə, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı Cənubi Qafqazda sülhün, sabitliyin əsas qarantıdır:** "Bu əməkdaşlıq kimsəyə qarşı yönəlməyib və regionda heç bir dövlət üçün təhdid təşkil etmir. Amma kimsə, hansısa bir güc regionda sabitliyi pozmaq istəyərsə, o zaman qarşısında Azərbaycan-Türkiyə birliyini görəcək. Məncə bu, hər kəs tərəfindən, eyni zamanda anti-Azərbaycan və anti-Türkiyə qüvvələri tərəfindən dərk edilən bir həqiqətdir. Son illər Azərbaycan-Türkiyə hərbi əməkdaşlığına Gürcüstanın da daxil olması sevindiricidir. Bu, region dövlətlərindən biri olan Gürcüstanın Azərbaycan və Türkiyənin sülhpərvər siyasətinə olan inamını əks etdirir. Bu həm də, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının region dövlətləri tərəfindən dəstəkləndiyini, bu əməkdaşlığın gələcəyinə böyük ümidlərin olduğunu göstərir. Ona görə də Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının Gürcüstanı da əhatə etməsi, üçlü xarakter alması olduqca əhəmiyyətlidir. Hesab edirəm ki, yaxın gələcəkdə Azərbaycan-Türkiyə-Gürcüstan hərbi əməkdaşlığının daha da genişlənməsinə, bu əməkdaşlığın regional sülhün etibarlı şəkildə təmininə daha böyük töhfələr verməsinə şahid olacağıq".

**birgə hərbi təlimləri keçirilib:** "Bu da adıçəkilən ölkələr arasında hərbi əməkdaşlığı inkişaf etdirməyə, regional təhlükəsizliyin birgə təminatını təşkil etməyə hesablanıb. Azərbaycan-Türkiyə-Gürcüstan hərbi əməkdaşlığının yaxın gələcəkdə daha da genişlənməsi, inkişaf etdirilməsi gözlənilləndir. Heç şübhəsiz, Türkiyə, Azərbaycan və Gürcüstanın müdafiə nazirləri arasında keçiriləcək üçtərəfli görüş bu əməkdaşlığın gələcəyinə töhfə verəcək, onun mahiyyət etibarilə yeni mərhələyə yüksəlməsini təmin edəcək".

Azərbaycan-Türkiyə əlaqələrindən danışan polkovnik bəyan edib ki, Türkiyə müstəqilliyimizin ilk illərində sadəcə diplomatik müstəvidə deyil, həm də ordu quruculuğu müstəvisində Azərbaycana ciddi dəstək verib: "Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən qabaq-

**İsmayıl Qocayev**

# Vasif Talıbov vəzifədən uzaqlaşdırıldı

## Bakı ilə Ankara İran üzərində gizli mübarizənin bu mərhələsindən də qalib çıxdı



Bununla da Türkiyənin Azərbaycanla strateji müttəfiqlik əlaqələrini yaralamaq istəyən bir səhifə qapandı

**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qapalı iclası keçirilib və Ali Məclisin sədri Vasif Talıbov istefa verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov bildirib ki, Vasif Talıbov səhhəti ilə bağlı müraciətinə baxılmasını xahiş edib. Qərar sessiya iştirakçılarının diqqətinə çatdırılıb və səsə qoyularaq qəbul olunub.**

V.Talıbovun vəzifələri müvəqqəti olaraq birinci müavini Azər Zeynalova tapşırılıb. Məlumat üçün deyək ki, Vasif Talıbov 1995-ci ilin dekabr ayından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışıb. İclasla bağlı yayılan rəsmi mətn və fotolarda bir sıra məqamlar diqqət çəkib. Toplantıda Vasif Talıbovun özünün iştirak etmədiyi bəlli olub. Deputatlar Vasif Talıbov olmadan onun ərizəsini səsə qoyublar. İclasda 45 deputatdan 38-nin iştirak etdiyi qeyd olunub. Yeni deputatlardan 5-i iclasa qatılmayıb. Vasif Talıbovun oğlu, Dövlət Miqrasiya Xidmətinin Baş İdarə rəisi Rza Talıbov atası barədə danışmaq istəmədiyini deyib. Bildirib ki, o, Bakıda yaşayır və öz işi ilə məşğuldur. R.Talıbov istefasından sonra atası ilə əlaqə saxlamadığını söyləyib: "Danışmamışam. Heç bir məlumatım yoxdur".

Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, Naxçıvanın muxtar respublika statusunun ləğvinə hazırlıq sürətlənir. Analitik düşünür ki, Vasif Talıbovun istefası və digər proseslər bunu göstərir: "Məncə, doğru yanaşma da elə odur. Unitar ölkə olan Azərbaycanda heç bir ərazinin özəl statusuna ehtiyac yoxdur. Ümumiyyətlə, ölkənin inzibati-ərazi bölgüsü də dəyişdirilməli, yaradılmış 14 iqtisadi rayon inzibati-ərazi vahidinə çevrilməli, yerli özünüidarəetmə gücləndirilməli, böyük şəhər bələdiyyələri və seçkili mer institutu təsis edilməlidir".

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə vurğulayıb ki, Naxçıvan uğrunda üç maraq - Türkiyə, İran və Rusiya baş-başa gəlirdi. Ekspertə görə, Azərbaycanla Türkiyə strateji müttəfiq olduqdan sonra Naxçıvan uğrundakı gizli mübarizə şiddətləndi:** "Azərbaycanla Türkiyə İranın artan hədələri, Rusiyanın küləklər əsdirməsi fonunda yeni çağırışlarla üz-üzə qaldı. Naxçıvanın Türkiyə üçün əhəmiyyətindən danışmaq lazım deyil, hamı bilir ki, Ankara üçün Naxçıvan nə deməkdir. Fikir verirsinizsə, Türkiyə PKK-nın Cənubi Qafqazdakı özəklərini də araşdırdığını müxtəlif informasiyalarla üstüörtülü dilə gətirirdi. Görünür ki, Türkiyə dövlətinin qüdrətli dövlət cihazı olan MİT bəzi məlumatlara yiyələnib və Naxçıvanın ona qarşı proseslərdə vasitə kimi istifadə olunduğu haqqında məxfi hesabat hazırlayıb.

Azərbaycanın qonşu ölkələrlə sərhədlərinin bağlı qaldığı halda, Naxçıvandakı muxtar hökumətin verdiyi əks qərarlar suallar doğururdu. Hər halda Naxçıvan Muxtar Respublikasını idarə edən şəxslərin özlərini ələhiddə statusda göstərməsi Azərbaycan Konstitusiyasına hörmətsizlik əlaməti idi və təhlükəsizlik üçün təhdidlər yarada bilərdi. Ona görə də Vasif Talıbovun vəzifədən getməsi labüddəşdi. Bununla da Türkiyənin Azərbaycanla strateji müttəfiqlik əlaqələrini yaralamaq istəyən bir səhifə qapandı və Bakı ilə Ankara İran üzərində gizli mübarizənin bu mərhələsindən də qalib çıxdı. Cənubi Qafqazdakı yeni reallıqlarda artıq Vasif Talıbova ehtiyac olmadı, çünki etdiyi səhvlər nəticə olaraq həssas təhlükəsizlik mühitini korlayırdı".

**Ədalət Partiyasının sədr müavini Elxan Şükürlü isə Vasif Talıbovun istefa xəbərini bu cür şərh edib:** "Vəssalam! Zamanında geri çəkilməyi bacarmayan, nəfsinə yenik düşən, xalqdan çıxıb, xalqıyla özü arasına böyük bir sədd çəkən, özünü hamıdan üstün tutan daha bir sərvətə həris rəhbərin acı və rüsvayçı çöküş hekayəsi bitdi. "Zülmlə abad olan bir gün bərbad olar", - deyən atalarımız yenə haqlı çıxdı. Zülmə məruz qalanların dirçəlişləri, ah-nala dolu hekayələri isə bundan sonra eşidiləcək! Yaltaqların və məddahların "Biz ölərik, səni tək qoymarıq!" şüarları altında əyləşdiyi qızıl taxtda məst olan Səddam da son anadək hesab edirdi ki, heç kəs onu hakimiyyətdən sala bilməz, səltənəti daimidir, əbədidir. Bir də onda ayıldı ki, bütün ətrafı onu satıb, qaçmağa, sığınmağa belə, yeri yoxdur! Məhkəmədə ilk üzünə duranlar da elə həmin yaltaq əyanları, şəxsiyyətini sındırıb alçaltdığı məmurları oldu! Qisasını ala bilməyən məzlumların haqqını həmişə Allah qoruyar, bunu heç kəs unutmasın!".

**İsmayıl Qocayev**

# TDT çox ağıllı və strateji proyektdir

## Əsas məqsədi dünyada 300 milyondan çox olan türk kökənli insanları bir araya gətirməkdir



**"Türk Dövlətləri Təşkilatının (TDT) mülki müdafiə mexanizminin yaradılması mərhələsindəyik".** Bunu Türkiyənin daxili işlər naziri Süleyman Soylu TDT Təbii Fəlakət və Fövqəladə Halların İdarəedilməsi üzrə Nazirlərin Zirvə görüşündə deyib. O bildirib ki, bu gün bu istiqamətdə ilk addımlar atılır: "Zəlzələlər güclü və dağıdıcıdır. Amma inanırıq ki, bizim qardaşlığımız daha güclüdür".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə deyib ki, Türk Dövlətləri Təşkilatının "doğum şəhadətnaməsi" 2009-cu ilin oktyabr ayında, Azərbaycanın beş min illik qədim tarixə malik Naxçıvan diyarında yazılıb.** Professor vurğulayıb ki, bu ideyanın müəllifləri - Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevdir: "Layihə çox ağıllı, uğurlu və uzaqgörən proyektdir. Əsas məqsədi dünyada 300 milyondan çox olan türk kökənli insanları bir araya gətirmək və gələcək talelərini birlikdə müəyyən etməkdir. Türk Dövlətləri Təşkilatı möhkəmlənənə və beynəlxalq təşkilata çevrilənədək açıq siyasət yürütməkdi. Regional qurum sayılsa da, beynəlxalq əməkdaşlıq və türk mənşəli xalqların inteqrasiyası sahəsində böyük rol oynayır. Türk Dövlətləri Təşkilatı daha da təşkilatlanmaq, böyümək və güclənmək üçün yeni layihələr reallaşdırır. Onlardan biri də mülki müdafiə sahəsində birgə əməkdaşlıq mexanizmi yaratmaqdır. Mülki müdafiə sahəsində birgə əməkdaşlıq önəmlidir. Türkün birliyi zəlzələdən güclüdür. Türkiyənin müdafiə naziri Hulusi Akar bir müddət öncə Azərbaycan və Türkiyənin vahid ordu məsələsini də gündəmə gətirmişdi. Adını necə istəyirlər qoysunlar, kimisi Turan Ordusu deyir, başqaları Türk Ordusu adlandırır, fərq etməz. Türk Dövlətləri Təşkilatının özünümüdafiə mexanizmi yaratması vacibdir. Artıq bu məsələ də gündəmdədir. Hər bir dövlətin prioriteti ölkənin və xalqın milli təhlükəsizliyini təmin etməkdir".

**C.Nuriyev söyləyib ki, türk xalqlarının yaşadığı bölgələrə dikilən yad gözlər çoxdur:** "Ortaq müdafiə mexanizminin yaradılması bütün təşkilat üzvlərinin təhlükəsizliyinə təminatdır. Daxili təhlükələrlə türk respublikaları özləri təkbaşına da mübarizə apara bilirlər. Azərbaycan 44 günlük Vətən savaşı ilə digər türk dövlətlərinə də stimul, motivasiya verdi. Amma xarici təhlükəsizliklə birgə mübarizə çox vacibdir. Türkiyə və Azərbaycanın yerləşdiyi bölgə ən çox münaqişə və qarşıdurma yaşanan məkanlardandır. Ətrafımızda bizə düşmən güclər çoxdur. Ona görə də türk dövlətləri birmənalı şəkildə siyasi-iqtisadi və hərbi sahələrdə bir yerdə olmalıdırlar. Siyasi və iqtisadi sahələrdə xeyli yol qət edilib və ciddi çatışmazlıq yoxdur. Lakin hərbi sahədə daha sıx əməkdaşlığa, sazişlərə ehtiyac var. Bu proseslərdə lokomotiv status malik qardaş Türkiyədir. Təbii ki, Azərbaycan da mühüm rola sahibdir. TDT-nin işləmə mexanizmini mükəmməl hala gətirmək üçün davamlı görüşlər və müzakirələr şərtdir".

**İsmayıl Qocayev**

# Etik davranış üzrə müvəkkil vəzifəsi yaradılır

## Əlimənməd Nuriyev təşəbbüsün müsbət, nəticəninsə gözlənilən olmadığını bildirdi

**Azərbaycanda yeni vəzifə təsis edilir. Bununla bağlı məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılan "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklə əksini tapıb.**



"Onların maliyyə müstəqilliyi də olmayacaq. Bu baxımdan yeni vəzifə təsisatından fayda gözləməyə dəyməz"

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019?2025-ci illər üçün Strategiya"da dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi və dövlət orqanlarında etik davranış qaydalarına daha ciddi riayət edilməsinin təmin edilməsi məqsədilə dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsinin təsis edilməli olduğu qeyd olunub. Qanun layihəsi yuxarıda qeyd olunanlara uyğun hazırlanıb. Layihədə etik davranış üzrə müvəkkil vəzifəsi təsis edilməklə, müvəkkilə aid tələblər və onun səlahiyyətləri müəyyən olunur.

**Konstitusiya Araşdırmaları Fondunun prezidenti, hüquqşünas Əlimənməd Nuriyev "Şərq"ə açıqlamasında təşəbbüsün müsbət, nəticəninsə gözlənilən olmadığını bildirdi:**

- Etik məsələlər üzrə müvəkkillik institutu Azərbaycanda vardı. Lakin faydası yox idi. Çünki bu institut dövlət qurumlarının tərkibində fəaliyyət göstərirdi, etik məsələlər üzrə müvəkkillər müstəqil qərar verə bilmirdilər, rəhbərlərə bağlı idilər. Müsbət haldır ki, etik davranış üzrə müvəkkil vəzifəsinin təsis edilməsi qanunvericiliklə təsbit edilir. Bu baxımdan ki, etik davranış kodeksi varsa, ona nəzarət edən də olmalıdır. Lakin bu vəzifənin qanunvericiliklə təsbit edilməsi də lazımi effekti doğurmayacaq, o səbəbdən ki, bu vəzifə yenə də hansısa qurumun tərkibində yaradılır. Bu vəzifə insan resurslarına departamentlərinə, hüquq şöbələrinə həvalə ediləcək, yenə də yüksək vəzifə sahiblərindən asılı olacaqlar. Və demək ki, müstəqil qərar qəbul edə bilməyəcəklər. Onların maliyyə müstəqilliyi də olmayacaq. Bu baxımdan yeni vəzifə təsisatından fayda gözləməyə dəyməz.

**Ə.Nuriyev qeyd etdi ki, dünyada etik məsələlər üzrə müvəkkil vəzifəsi var, lakin fərqli formatda:**

- Dünyada var belə təcrübə. Lakin etik müvəkkillər az qala ombudsman səlahiyyətlərinə malik insanlardır. Cəmiyyət və parlament qarşısında hesabat verirlər. Ayrıca vəzifənin təsis edilməsində niyyət yaxşıdır, lakin bu, imitativ xarakter daşıyacaq, çünki yenə də rəhbər şəxslərdən asılı olacaqlar.

**Məlahət Rzayeva**

# Şuşa-Xankəndi yolundakı aksiya nəticə verir

## Bunu erməni separatçı-terrorçuları da anlamağa başlayıblar



*"Aydınlaşmağa başlayıb ki, Laçın dəhlizindən hərbi və iqtisadi cinayətlər üçün istifadə müddəti sona çatmaq üzrədir"*

**Şuşa-Xankəndi yolunda keçirilən aksiyada iştirakçılar "humanitar yardım" adı altında qanunsuz daşımaların da qarşısını alır. Məlumatlara görə, yoxlanılmadan keçmək istəməyən beş yük avtomobili buraxılmayıb. Bu məsələ iki məqamı ön plana çıxarır. Qarabağa hələ də qanunsuz yüklərin daşınmasına cəhdlər edilir.**

Görünür, iştirakçıların "humanitar yardım"lara şərait yaratmasından sui-istifadə etmək istəyiblər və istisna deyil ki, yoxlamaya imkan verilməyən yük maşınlarında silah-sursat olub. Qanunsuz daşımaların qarşısını almağa hesablanmış bu yoxlamalarla Azərbaycan xalqı Laçın yoluna nəzarəti praktiki olaraq icra edir. Proseslərin inkişafı yolda rəsmi şəkildə gömrük-buraxılış məntəqəsinin qurulması ilə nəticələnə bilər.

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında bildirib ki, Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası olduqca böyük əhəmiyyət daşıyır. Siyasi şərhçiyə görə, bunu erməni separatçı-terrorçuları da anlamağa başlayıblar:** "Aydınlaşmağa başlayıb ki, Laçın dəhlizindən hərbi və iqtisadi cinayətlər üçün istifadə müddəti sona çatmaq üzrədir. 44 günlük savaşın sona çatmasından sonra rəsmi Bakı və Azərbaycan xalqı iki il səbrlə gözlədi ki, Ermənistan üçtərəfli anlaşmalara riayət etsin. Ancaq rəsmi İrəvan həmin anlaşmalara nəinki riayət etmədi, əksinə, onları kobud şəkildə pozmaqda davam etdi. Ermənistan ordusunun tör-töküntüləri Azərbaycan ərazilərindən çıxarılmadı, silahlı erməni terrorçular tərksilah olunmadı. Üstəlik, Azərbaycana qarşı yeni iddialarla da çıxış etməyə başladılar. Digər tərəfdən, Ermənistandan Laçın dəhlizi ilə Azərbaycanın Xankəndi və ətraf bölgəsinə canlı qüvvə, silah-sursat, hərbi texnika daşıdılar. Həmin marşrutdan istifadə edərək, Azərbaycan ərazilərinin minalanması prosesini davam etdirdilər.

Bütün bunlar onu göstərir ki, Laçın dəhlizinin indiki şərtlər altında mövcudluğu artıq Azərbaycan dövlətinə qarşı real təhlükəyə çevrilib. Bu marşrutun nəzarətdən kənar qalması Azərbaycanın milli təhlükəsizlik maraqlarını ciddi şəkildə təhdid edir".

*E.Xalidbəyli qeyd edib ki, bölgədə müvəqqəti dislokasiya olunan rus "sülhməramlılar"ın komandanı general-mayor Andrey Volkov və Kremlin emissarı, erməni fırıldaqçı Ruben Vardanyan ortaq şəkildə Azərbaycanın təbii sərvətlərinin talanması ilə məşğul olurlar:* "Təbii ki, bütün bunlar Azərbaycan cəmiyyətinin səbrini daşırdı və Laçın dəhlizində ekoloqların vətəndaş cəmiyyəti təmsilçiləri ilə birlikdə etiraz aksiyası keçirməsinə tamamilə əsaslar verir. Və aksiyanın mövcud nəticələri də göstərir ki, Azərbaycanın Xankəndi və ətraf bölgəsində erməni terrorizmini, hərbi və iqtisadi cinayətlərin qarşısını almaq üçün Laçın dəhlizi ilə bağlı mütləq daha qətiyyətli addımların atılması vacibdir.

Məsələ ondadır ki, Xankəndi və ətraf bölgənin yenidən Azərbaycana inteqrasiyasına nail olmaq üçün Laçın yoluna nəzarət edilməsi qaçılmazdır. Erməni terrorçuların ən çox narahat olduqları məqam da məhz budur. Azərbaycan dövlətinin ən qısa zamanda Laçın dəhlizində mövcud qurumların nəzarət-buraxılış məntəqələrini yaratması artıq reallığın tələbidir. Əgər bu baş verərsə, Xankəndi və ətraf bölgədə 30 illik erməni separatizmi və terrorizmi heç 30 gün belə davam gətirə bilməz. Ona görə də ilk növbədə Azərbaycan Ordusu mütləq Laçın dəhlizinə nəzarəti öz üzərinə götürməlidir. Üçtərəfli anlaşmalar da buna qarşı deyil. Xüsusilə də Ermənistanın Zəngəzur dəhlizinin açılması ilə bağlı maddələri icra etmədiyini nəzərə aldıqda, buna hüquqi əsaslar da var".

**Analitik düşünür ki, BMT Təhlükəsizlik Şurasının son çağırışlarına isə qətiyyən əhəmiyyət vermək lazım deyil:** "Xankəndi və ətraf bölgə də, Laçın dəhlizi də beynəlxalq hüquqa görə məhz Azərbaycan ərazisidir. Digər tərəfdən BMT Təhlükəsizlik Şurasını Ermənistan çoxdan hörmətdən salıb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan tərəfindən icra edilmədiyi halda, indi bu qurumun Azərbaycanın əraziləri ilə bağlı hər hansı mövqedən çıxış etməsi tamamilə məntiqsizdir. Fransa başda olmaqla, BMT Təhlükəsizlik Şurasının bəzi üzvləri vərdişləri üzrə yenə də "üç meymunu" oynayırlar. Və bundan sonra Azərbaycana qarşı erməni diasporunun ssenariləşdirdiyi "üç meymun" tamaşası daha heç bir nəticə verməyəcək".

**İsmayıl Qocayev**

# Hər iki ölkə ilə müsbət əlaqələr var

## Rəsmi Bakı bütün hallarda Serbiya və Kosovaya vasitəçilik missiyasını da təqdim edə bilər

**Serbiya Grezidenti Aleksandar Vuçiç dekabrın 20-də Azərbaycana işgüzar səfərə gəlib. Vuçiçin səfəri işgüzar xarakterli olsa da, kifayət qədər diqqət çəkir. Xatırladaq ki, Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfərindən heç bir ay keçməyib.**

Serbiya və Azərbaycan prezidentlərinin ay ərzində qarşılıqlı səfərlər etməsinin bir çox səbəbi ola bilər. Lakin ekspertlərə görə, əsas məsələ mövcud Serbiya-Kosova gərginliyidir. Rəsmi Belqrad Priştina ilə son 10 ilin ən böyük gərginliyini yaşayır. Tərəflər arasında bir müddətdir davam edən avtomobil nömrəsi böhranı noyabrın 21-də Kosovanın ərazisinə daxil olacaq Serbiya nömrə nişanlı avtomobillərə cərimə tətbiq edəcəyini açıqlaması ilə pik həddə çatıb.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, Vuçiç yaxşı bilir ki, ehtimal serb-alban silahlı toqquşması Belqrad üçün baha başa gələ bilər. Söhbət rəsmi Belqradın həm beynəlxalq təzyiqlə üzləşməsi, həm də Avropa Birliyinə üzvlük prosesinin da-**



**yandırılmasından gedir:** "Bundan başqa Kosovada NATO-nun sülhməramlı qüvvələri mövcuddur və ora hər hansı genişmiqyaslı hücum həmin qüvvələrlə qarşı-qarşıya gəlmək deməkdir. Vuçiç Azərbaycan Grezidentinin Serbiyaya səfəri zamanı "biz Prezident İlham Əliyevdən çox şey öyrənə bilərik" demişdi. Əslində onun bu sözləri həm də "mən nə etməliyəm" sualıdır. Görünür, Vuçiç artıq bu sualı birbaşa vermək və cavabını öyrənmək üçün ölkəmizə səfərə gəlib. Əslində Serbiyanın mövcud gərginliyini sonlandırmasının bir neçə yolu var. Birincisi, rəsmi Belqrad Rusiyanı dəstəkləməkdən imtina etməlidir. Məsələ ondadır ki, Qərb bu məsələdə Kosovoya açıq şəkildə dəstək verir. Bu dəstəyin əsas səbəbi də Serbiyanın Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara qoşulmamasıdır. Belqrad indiki məqamda Rusiyaya qarşı mövqeyini dəyişsə, mümkündür ki, Qərb də gərginliyin azalması istiqamətində Kosova hakimiyyətinə təzyiq edə bilər. İkincisi, Serbiya Qazaxıstan variantına da əl ata bilər. Söhbət Rusiyaya qarşı sanksiyalar tətbiq etmədən iki dövlət arasında münasibətlərin pisləşdiyi eyforiyası yaratmaqdan gedir. Üçüncüsü isə Prezident İlham Əliyev Vuçiçə Azərbaycansayağı balans siyasətində məsləhət görə bilər. Söhbət Ukraynaya humanitar yardım edib, Rusiyanın işğalını tanımamaqdan gedir. Belə bir addımdan Rusiya tərəfi də narazı qalmaz. Rəsmi Bakı bütün hallarda Serbiya və Kosovaya vasitəçilik missiyasını da təqdim edə bilər. Prinsip etibarilə hər iki ölkə ilə müsbət əlaqələr var".

**İsmayıl**

# "Əgər siz mən tərəfdən baxsanız..."

## İlon Mask "Tviter"i qəzaya uğrayan təyyarəyə bənzədib



**Sahibkar İlon Mask eyniadlı sosial şəbəkənin sahibi olan "Tviter" kompaniyasını qəzaya uğrayan təyyarə ilə müqayisə edib.**

Azərtac xəbər verir ki, kompaniyanın yeni sahibi bu fikri çərşənbə günü sosial şəbəkənin audio zalında onlayn olaraq səsləndirib. "Əgər siz mən tərəfdən baxsanız, baş verənlər mühərrikləri yanan, panel cihazı işləməyən və yüksək sürətlə yerə çırpılan təyyarəni xatırladacaq", - milyarder belə deyib. Eyni zamanda qeyd edib ki, kompaniyada xərcləri azaltmaq üçün onun tərəfindən həyata keçirilən siyasət 2023-cü ili itkisiz başa vurmağa imkan verəcək. Xatırladaq ki, oktyabrın 27-də İlon Mask "Tviter"i satın aldığına dair müqavilə bağlayıb. Bundan dərhal sonra baş direktor Paraq Aqraval və maliyyə direktoru Ned Seqal da daxil olmaqla, rəhbərliyin bir sıra üzvləri işdən çıxarılıb. Mask, həmçinin direktorlar şurasını ləğv edib və kompaniyanın yeganə rəhbəri olub. Dekabrın 18-də tviter səhifəsində sorğu təşkil edən sahibkar sosial şəbəkə istifadəçilərinə onun rəhbər postunda qalıb-qalmaması barədə sual ünvanlayıb və bildirib ki, səsvermənin nəticələrinə uyğun hərəkət edəcək. On iki saat sürən sorğuda 17,5 milyondan çox istifadəçi iştirak edib. Sorğu iştirakçılarının 57,5 faizi Maskın "Tviter" kompaniyasının rəhbəri postundan getməsinin lehinə, 42,5 faizi isə əleyhinə səs verib. Beləliklə, sahibkar özünə varis tapan kimi kompaniyanın rəhbəri vəzifəsini tərk etməyə hazır olduğunu açıqlayıb.



**BDU-nun Jurnalistika fakültəsinin Elmi Şurasında tanınmış telejurnalist və publisist, professor Qulu Məhərrəmli kafedra müdiri vəzifəsinə seçilib. Bundan sonra o, fakültənin Multimedia və elektron kommunikasiya" (əvvəlki "Televiziya və radio jurnalistikası") kafedrasına rəhbərlik edəcək. Professor 24 ildir ki, həmin kafedrada çalışır.**

# Professorun yeni uğuru...

## Qulu Məhərrəmli kafedra müdiri vəzifəsinə seçilib

Qulu Məhərrəmli təkcə məşhur televiziya aparıcısı, "7 gün", "Təfsilat", "Gerçəklik", "Səhər" (AzTV), "Dost məclisi", "Gündəm" (Xəzər TV), "Mətbuat aynasında" (GünAz TV) kimi parlaq televerilişlərin yaradıcısı və müəllifi deyil, həm də jurnalistika elmi və dilçilik sahəsində tanınmış alimdir.

Bakı Dövlət Universitetinin məzunu olan Q.Məhərrəmli 1978-ci ildə Azərbaycan televiziyasının "Xəbərlər" baş redaksiyasında reportyor kimi fəaliyyətə başlayıb. 1991-ci ildən xəbər aparıcısı kimi müntəzəm efirə çıxan Q.Məhərrəmli daha çox 1993-95-ci illərdə apardığı "7 gün" analitik informasiya proqramı ilə tanınıb, obyektivliyi və qərəzsizliyi, hadisələrə vicdanlı münasibəti və yüksək peşəkarlığı ilə fərqlənib. Mükəmməl analitik veriliş formatı olan "7 gün" teleməkanımızda jurnalistikanın yeni prinsiplərinin təsdiqində həlledici rol oynayıb.

1995-ci ildə Azərbaycan televiziyasının ilk siyasi icmalçısı təyin olunmuş Q.Məhərrəmli, eyni zamanda qısa müddətdə "Xəbərlər" baş redaksiyasına rəhbərlik edib. O, həmin illərdə dövlət başçısının xarici səfərlərdə müşayiət edib, bu səfərlər haqqında silsilə verilişlər hazırlayıb. Q.Məhərrəmlinin yaratdığı və 12 il rəhbərlik etdiyi "Səhər" musiqi-informasiya proqramı 25 ildən çoxdur ki, teleməkanımızın ən populyar verilişlərindən biri olaraq qalır.

1982-ci ildən elmi, 1991-ci ildən isə pedaqoji fəaliyyətə başlayan Q.Məhərrəmli 1989-cu ildə "Radiodramaturgiya dili" mövzusunda namizədlik, 2004-cü ildə isə "Televiziya dili: funksiya və struktur" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Müstəqillik dövründə jurnalistika ixtisası üzrə elmlər doktoru olan Q.Məhərrəmlinin elmi araşdırmalarında jurnalistikanın və medianın ümumi nəzəriyyəsi, televiziya və radionun tarixi, bu sahənin aktual elmi-nəzəri problemləri, o cümlədən ekran-efirin mürəkkəb dil sisteminin öyrənilməsi əsas yer tutur.

1998-ci ildə BDU-nun Televiziya və radio jurnalistikası kafedrasında baş müəllim vəzifəsinə qəbul edilib, 2000-ci ildə baş müəllim, 2002-ci ildə dosent, 2006-cı ildən professordur. 2006-cı ildə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb. 2014-16-cı illərdə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda Monitorinq şöbəsinə rəhbərlik edib. Dəfələrlə xarici ölkələrdə Azərbaycan jurnalistikasını və jurnalistika elmimizi təmsil edib.

Media problemləri, o cümlədən teleradio jurnalistikası üzrə nüfuzlu mütəxəssis kimi tanınan professor Q.Məhərrəmli 40-a yaxın kitabın, o cümlədən bir neçə monoqrafiya, dərslik və dərs vəsaitinin, həmçinin izahlı lüğətlərin müəllifidir. Onun "Jurnalistikanın əsasları", "Radio dalğalarında", "Danışır Təbriz", "Mediada debatlar", "Jurnalistika terminləri", "Azərbaycan dilinin frazeologiya lüğəti", "Yeni alınma sözlər", "Gələcəyə ön söz" əsərləri xüsusi fərqləndirilir. Əsərləri ingilis, alman, rus, koreya, fars və çex dillərində çap edilib.

*Professor Qulu Məhərrəmlini yeni uğuru münasibətilə təbrik edir, yüksək səviyyəli jurnalist kadrları hazırlamaq işində ona nailiyyətlər arzulayırıq.*

# Rusiya Azərbaycanı hədəf seçə bilməz

## Bəyannaməyə uyğun olaraq türk ordusu Azərbaycandadır



**Rusiyanın ekspert dairələrində Azərbaycanı təhdid edən açıqlamalar verilir. Qərəzli açıqlamalar və anti-Azərbaycan mövqeli yazılar Rusiya kütləvi informasiya vasitələrində geniş yayımlanır. Analitiklər bunun Kreml tərəfindən idarə olunduğuna şübhə etmirlər. Çünki Rusiyada müstəqil KİV-in olmadığını qeyd edirlər.**

Politoloq Məhəmməd Əsədullazadə bildirib ki, Kremlin qərəzli təlimatları bu ilin 22 fevralında imzalanan Moskva Bəyannaməsinin bir çox bəndlərinin Rusiya tərəfindən pozulmasıdır. Ekspert "Ukraynadan sonra Azərbaycanın cəzalandırılması" məsələsinə də toxunub: "Rusiya Ukraynada siyasi-hərbi hədəflərinə nail olmayıb. Rusiyanın əlində müasir silahları olsa da, Ukrayna əsgəri daha peşəkar və döyüş qabiliyyətinə malikdir. Məsələ ondadır ki, müasir silahlardan Rusiya əsgəri düzgün istifadə edə bilmir, rus ordusunda döyüş qabiliyyəti sıfırdır. Ona görə bilmək olmaz kim cəzalanacaq. Raket atmaqla infrastrukturu dağıtmaq savaşmaq deyil. Bu, birbaşa cinayət və terrorçuluqdur. Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsi var. Bəyannaməyə uyğun olaraq türk ordusu Azərbaycandadır. Rusiya burada Türkiyə ilə üz-üzə gələ bilər. Necə ki Liviyada Türkiyə ordusu Rusiya ordusunun "dizini yerə qoydu". Suriyada da eyni vəziyyət yarandı. Rusiyadan verilən açıqlamalarda rəsmi Bakı hədəf seçilsə də, Azərbaycan onlar üçün "zəif loxma" deyil".

**İsmayıl**

# "Köhnələrin "Vağzalı"sı çalınır"?

## "Naxçıvandakı idarəetmə siyasəti dayandırılmalıdır"

***Çingiz Özgür: "Yeni təyinat alacaq şəxs isə fəaliyyətinə Naxçıvan Ali Məclisini, oradan seçilən bütün deputatları buraxmaqla başlamalıdır"***



**"Vasif Talıbovun vəzifəsini hələ ki birinci müavini Azər Zeynalov icra edəcək. V.Talıbov sessiyada özü iştirak etmədiyinə görə istefa ilə bağlı ərizəni müavini təqdim edib".**

Bunu "Şərq" Naxçıvandan olan tanınmış jurnalist Çingiz Özgür Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun istefa verməsindən danışarkən deyib. Həmkarımız bildirib ki, avtomatik olaraq birinci müavin adıçəkilən sədrin yerinə təyin edilir:

"Yeni təyinat alacaq şəxs isə fəaliyyətinə Naxçıvan Ali Məclisini, oradan seçilən bütün deputatları buraxmaqla başlamalıdır. Hər kəsə məlumdur ki, V.Talıbovun gedişinin səbəbi səhhətində yaranan problemlə əlaqədar deyil. Belə olduğu halda Naxçıvanda bu günə qədər aparılan idarəetmə siyasəti dayandırılmalıdır".

*Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov dünənki iclasda istefa verib. Sədrin birinci müavini onun səhhətində yaranan problemlərə görə istefa verdiyini səsləndirib.*

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

**Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı-Şuşa Forumu işə başlayıb. Forum Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Türk Dövlətləri Təşkilatının tərəfdaşlığı ilə keçirilib. İştirakçı qurumlar 2023-cü il üçün diaspor üzrə birgə fəaliyyət planının və fəaliyyət strategiyasının müzakirəsini aparıblar.**

*Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov türk dünyasının diaspor təşkilatları arasında koordinasiyalı fəaliyyətin təşkil olunmasının, əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışıb:* "TDT-nin diaspor məsələlərinə məsul dövlət qurumlarının rəhbərləri iki gündür Azərbaycandadırlar: "Bakı-Şuşa Forumunun açılışı paytaxtda oldu. Forum çərçivəsində türk dünyasındakı diaspor təşkilatlarının birgə fəaliyyəti müzakirə olundu. Eyni zamanda TDT çərçivəsində gələn il üçün fəaliyyət planı barədə danışıldı. Gələn il TDT diaspor gənclərinin görüşü keçiriləcək. İlk dəfədir ki, bu formatda görüş olacaq. Amma müxtəlif formatlarda müntəzəm görüşlər keçirilir".

Forum ikinci gününün Şuşada davam etdirildiyini vurğulayan Komitə sədri deyib ki, sonda bəyanat qəbul olunub. Bu bəyanatda Azərbaycanda gedən proseslər və türk dövlətlərinin bu prosesə yanaşması əksini tapıb: "Biz istəyirik ki, Şuşa hər il belə tədbirlərə ev sahibliyi etsin. Biz təkcə TDT-ni deyil, digər beynəlxalq təşkilatları da bu işə cəlb edəcəyik. Prezident İlham Əliyevin tapşırığı ilə bu istiqamətdə işlərimiz davam edir".

O, həmçinin ölkəmizin mədəniyyət paytaxtı Şuşa ilə bağlı çoxlu planların olduğunu xatırladıb.

Ermənistanın ölkəmizə qarşı təxribatlarından danışan Komitə sədri bildirib ki, türkofobiya Ermənistanın rəsmi ideologiyasının təməlini təşkil edir: "Ermənistan işğal zamanı Azərbaycan ərazisində 1 milyondan çox mina basdırıb. İkinci Qarabağ müharibəsi bitdikdən sonra 2 il müddətində 270-ə yaxın Azərbaycan vətəndaşı mina partlayışı zamanı həlak olub və ya yaralanıb. Həmçinin münaqişənin 2 ildir bitməsinə baxmayaraq, Ermənistan sərhəddə təxribatları davam etdirir. Lakin beynəlxalq təşkilatları çaşdırmaq üçün əsassız şəkildə Azərbaycanı təcavüzdə günahlandırmağa səy göstərir. İkinci Qarabağ müharibəsinin nəticələri region üçün yeni imkanlar vəd edir. Azərbaycan Zəngəzur dəhlizinin işə düşməsini fəal şəkildə dəstəkləyir və bununla əlaqədar öz ərazisində genişmiqyaslı işlər həyata keçirir. Dəhlizin açılması isə bölgənin bütün ölkələri, o cümlədən də türk dünyası üçün faydalı olacaq".

F.Muradovun sözlərinə görə, Türk Dövlətləri Təşkilatının ərsəyə gəlməsinə gedən yolun məhz 2009-cu il Naxçıvan Zirvə Görüşündən başlaması təsadüfi deyil. Prezident İlham Əliyevin dediyi kimi, canı və qanı bir türk ölkələri ilə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Bu baxımdan diaspor məsələlərinə məsul qurumların üzərinə düşən vəzifə dünya türklərinin vahid yumruq kimi bir hədəfə vurmağı bacaran ümumtürk diasporunda birləşməsinə öz töhfəsini verməkdir.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Xaricdə yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin sədri Abdullah Eren isə Azərbaycan və Türkiyənin diaspor qurumlarının uzun müddətdir xaricdə çox yaxın əməkdaşlıq etdiklərindən bəhs edib.

Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Yerzhan Mukaş bildirib ki, dövlət başçıları müxtəlif sahələrdə əməkdaşlıqla bağlı 23 önəmli sənəd imzalayıblar. Bunlardan biri də diaspor sahəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlıdır. Çıxışında bayramların birgə qeyd edilməsinin əhəmiyyətli olduğunu bildirən Mukaş, türk dövlətlərinin ortaq




# Bakı-Şuşa Forumu əhəmiyyətli hadisədir

## Natiqlər hesab edir ki, artıq türk diasporlarının əməkdaşlığı zərurətə çevrilir

bayramı olan Novruz bayramı ərəfəsində dünyanın müxtəlif ölkələrində birgə tədbirlərin keçirilə biləcəyini deyib.

Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Millətlərarası münasibətlər və xarici ölkələrlə dostluq münasibətləri Komitəsinin sədri Rustambek Kurbanov bildirib ki, Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq türkdilli dövlətlərin diaspor təşkilatlarının rəhbərləri bir yerə toplanır: "Özbəkistan Millətlərarası Münasibətlər Komitəsi ilə Azərbaycanın Diasporalarla iş üzrə Dövlət Komitəsi arasında Tərəfdaşlıq memorandumunun imzalanması planlaşdırılır. Bu memorandum ölkələrimizin diaspor komitələrinin birgə fəaliyyətinə, dövlətlərimizin maraqlarının müdafiəsinə öz töhfəsini verəcək. Özbəkistanda 132 müxtəlif millətin nümayəndələri yaşayır və milli mədəni mərkəzlərin içində ən aktiv fəaliyyət göstərən Azərbaycan milli mədəniyyət mərkəzidir. Özbəkistanda Heydər Əliyev adına mədəniyyət mərkəzi fəaliyyət göstərir və bu il Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyevin heykəlinin və onun adına küçənin açılışı olub".

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı isə deyib ki, biz diasporun gücünü çox gec anlayan ölkələrdən biriyik. Səfir qeyd edib ki, ölkəmizdən xaricdə minlərlə vətəndaşımız yaşayır: "Onlar bir araya gələrək öncə öz məsələlərini, daha sonra digər türk dövlətləri ilə birlikdə digər məsələləri müzakirə etməlidirlər.

Bakıda və Şuşada keçirilən forum bu aspektdən çox önəmlidir. Ombudsmanlardan diasporlara qədər çox fərqli sahələrdə əməkdaşlıqlarımız inkişaf edib. Türk Dövlətləri Təşkilatı üzv ölkələr arasında önəmli lokomotiv rolunu oynayır".

Qırğızıstan Prezidenti yanında Dövlət Dili və Dil Siyasəti üzrə Milli Komissiyanın sədri Kanıbek Osmonaliyev deyib ki, Azərbaycan özünün bütün təbii sərvətlərinin keşiyində dayanır: "Vətəni qorumaq, təbii sərvətləri qorumaq, bu torpaqlarda yaşayan əhalini qorumaq kimi anlayışlar var. Hər bir dövlət bütün bu dəyərlərini qorumalıdır. Bu mülahizələrdən çıxış edərək, təbii ki, Azərbaycan tərəfi indi bütün təbii sərvətlərini, əhalinin təhlükəsizliyini və respublikaya aid olan strateji ərazilərini qoruyur. Bütün bunlar ölkənin bütövlüyü nöqteyi-nəzərindən həyata keçirilir".

Digər çıxışçılar da Forumun işini yüksək qiymətləndirib, türk diasporlarının əməkdaşlığının zərurətə çevrildiyini diqqətə çatdırıblar.

Forumda dünyadakı türk diasporlarının inteqrasiyasına yönəlmiş mühüm layihələr, TDT-yə üzv ölkələr arasında mədəni-humanitar əməkdaşlığın dərinləşməsi, diaspor qurumları arasında işbirliyinin vacibliyi, vətəndən kənarda yaşayan türk icmalarının ana dilində təhsil almaq imkanlarına malik olması və digər vacib mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

**Sonda "Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı -Şuşa Forumu"nun iştirakçıları birgə bəyanatı qəbul edib.**

*Bəyanatda deyilir:*

"Biz - 20-21 dekabr, 2022-ci il tarixində Bakı və Şuşa şəhərlərində keçirilmiş "Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu"nun iştirakçıları "Şuşa ili"ndə dünya ictimaiyyətini Azərbaycanın mədəniyyət paytaxtında salamlamaqdan qürur duyuruq!

Forumda iştirak edən dövlətlər öz diasporlarının sıx birləşməsinə hər zaman töhfə veriblər. Türk Dövlətləri Təşkilatı çərçivəsində qəbul edilmiş Türk Diasporunun Birgə Fəaliyyət Strategiyasına uyğun olaraq keçirilən ikitərəfli, o cümlədən çoxtərəfli görüşlər, müxtəlif proqram və forumlar əlaqələrimizin daha da genişlənməsinə xidmət edib. Bu illər ərzində ümumi maraqların qorunması məqsədilə diaspor sahəsində imkanlar birləşdirilib, ümumi maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə birlik və həmrəylik nümayiş etdirilib.

Xüsusilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin diasporlarının yaxınlaşması və əməkdaşlığı istiqamətində bir sıra mühüm addımlar atılıb: bütün türk diasporları üçün birgə fəaliyyət strategiyasının müəyyənləşdirilməsi ilə yanaşı, əksər üzv dövlətlərin diaspor işlərinə cavabdeh qurumları arasında memorandumlar imzalanıb, qurum rəhbərlərinin qarşılıqlı səfərləri və görüşləri keçirilib, Bakıda və Bursada üzv dövlətlərin diaspor qurumları arasında təcrübə mübadiləsi proqramları, Berlin və Nyu-Yorkda türk diasporları üçün potensialın gücləndirilməsi proqramları həyata keçirilib.

Dünyanın müxtəlif ölkələrindən diaspor təşkilatları, iş adamları, elm adamları və digərlərinin də iştirakı ilə Bakıda və Bursada Türk Diaspor Forumları keçirilib və illik birgə fəaliyyət planları ilə türk diasporlarına istiqamət vermək təcrübəsinin əsası qoyulub.

Bu zəmində 44 günlük müharibə zamanı türk dünyası tərəfindən göstərilən informasiya dəstəyi Azərbaycan həqiqətlərinin dünyada təbliği, Azərbaycana qarşı yönəlmiş təxribatların qarşısının alınmasında böyük rol oynayıb.

Azərbaycanın 44 günlük müharibə Zəfərindən sonra 2021-ci ilin iyun ayında Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi türk diasporlarının Birgə Fəaliyyət Strategiyası üçün yeni üfüqlər açıb.

Diasporlarımızın gələcək fəaliyyəti ilə bağlı mühüm əhəmiyyət kəsb edən proqram xarakterli sənəddə Türk Dövlətləri Təşkilatına üzv olan digər dövlətlərin də vahid diaspor hərəkatına qoşulması, əməkdaşlığın, həmrəyliyin inkişaf etdirilməsi ciddi vəzifələrdən biri kimi ortaya qoyulub. Türk dövlətlərinin ortaq diaspor siyasətinin inkişafı ilə bağlı həssaslığı Türk Dövlətləri Təşkilatının müvafiq olaraq 2021 və 2022-ci illərdə İstanbul və Səmərqənd Zirvə Görüşlərində qəbul edilmiş "Türk Dünyasına Baxış-2040" və "Strategiya 2022-2026" sənədlərində də öz əksini tapmışdır.

Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd Bəyannaməsi və burada qəbul edilmiş digər sənədlər qarşıya qoyulan mühüm məqsədlərə nail olmaq, xüsusilə dünyada yaşayan türklərin milli hüquqlarının müdafiəsi istiqamətində vahid diaspor hərəkatı çərçivəsində fəaliyyətimizi daha da sıx birləşdirmək üçün əlverişli şərait yaradır.

Türk dövlətləri rəhbərlərinin də vurğuladığı kimi, Zirvə Görüşü bütün türk dünyasını narahat edən problemlərin həlli yollarının müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, yaşadıqları ölkədən asılı olmayaraq, Türk Dünyası ölkələrində yaşayan gənclərin məktəblərdə ana dilində təhsil almalarının zəruriliyi ilə ifadə olunan problemi Türk Dövlətləri Təşkilatının daim gündəmində olmalıdır. Təəssüf ki, bir çox türkdilli dövlətlərin hüdudlarından kənarda yaşayan türkdilli xalqlar bu imkanlardan məhrum ediliblər.

Bəyan edirik ki, 200 milyonluq Türk Dünyası geniş bir coğrafiyanı əhatə edən böyük bir ailədir. Biz bu ailənin üzvləri olaraq türk dünyasının birliyi məqsədinə sadiq qalacaq, milli maraqlarımız naminə bir-birimizə dəstək olmağa, həmrəyliyimizi gücləndirməyə və əməkdaşlığımızı genişləndirməyə davam edəcəyik!"

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Soyuq müharibə"yə heç bir əsas yoxdur

## Sığınacaqlarda işləyənlər çox fədakar insanlardır

**Ölkədə sığınacaqların sayının azlığı ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın açıqlaması bu sahəyə diqqəti artırdı. Görünən budur ki, son zamanlar gender əsaslı, məişət zəminində baş verən münaqişələr, küçələrə atılmış körpələrin, kimsəsizlərin sığınacaqlara yerləşdirilməsində yaşanan çətinliklər, eləcə də bəzi sığınacaqlarda baş verən zərərli hadisələr bu sahədəki problemlərin həllini vacib edir. Komitə sədri bildirib ki, sığınacaqların sayı tələbata uyğun gəlmir.**

Ümumilikdə 9 yardım mərkəzi var, onlardan yalnız 3-ü sığınacaq xidməti göstərir. Onların çarpayı sayı da məhduddur. Lakin cəmiyyətin tələbi, həm də qanunun tələblərinə uyğun olaraq yaxın zamanda bu problemi həll etməyi hədəfləyirlər. Komitə sədrinin açıqlamasının sığınacaqlar arasında "soyuq müharibə"yə səbəb olacağı qənaətinə gələnlər də var. Məsələn, QHT.az saytının rəhbəri, İnformasiya Təşəbbüslərinə Dəstək İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə feysbuk səhifəsində belə bir paylaşım edib: "Ölkədə sığınacaqlar arasında soyuq müharibəyə start verilib. Hüquqi baza yaradılmalıdır".

**Ölkədə qadınlar üçün ilk sığınacağın açılmasına nail olmuş "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında sığınacaqlar arasında "soyuq müharibə"yə heç bir əsas olmadığını dedi:**

- Əvvəla onu deyim ki, insan alveri ilə mübarizəyə başlayanda, ölkədə çoxları bu mövzuda danışmaq, fikir bildirmək, fəaliyyət göstərməyə maraqlı deyildi. Dərviş kimi, rayonlara düşüb indi insan alveri sahəsində aktiv olan QHT-ləri bu sahəyə cəlb etmişəm. Fəaliyyətimin ilk günündən gender əsaslı zorakılıq mövzusu prioritet olub, bu gün də o yolu davam edirəm, bir çox dəyişikliyə də nail olmuşam. 2002-ci ildə 17 kvadratlıq ev aldım, çətin vəziyyətdə olan kim müraciət etdisə, evimin, ailəmin içinə daxil etdim. Bu illər ərzində, neçə QHT-yə sidq-ürəklə dəstək verdim, qeydiyyatdan keçmələrinə kömək oldum. Kimsə deyə bilməz ki, hansısa təmənnam olub. Ölkədə ilk qadın sığınacağını ("Umid yeri" uşaqlar üçün ilk sığınacaq olub) özümün və insanların köməyi ilə standartlara uyğun tikdirdim. Sənədlərimiz beynəlxalq və milli qanunvericiliyə uyğundur. Hesab edirəm ki, "soyuq müharibə" yox,

### *Mehriban Zeynalova: "Bəli, sığınacaqların sayının artırılmasına ehtiyac var və bu, artıq zərurət halını alıb"*

xidmətin keyfiyyəti ilə bağlı sağlam rəqabətin formalaşmasına çalışmalıyıq. Çünki göründüyü kimi, sığınacaqlara daha artıq ehtiyac var. O ki qaldı hüquqi əsaslara, Nazirlər Kabinetinin məlum qərarı var. Həm Nazirlər Kabinetinin Monitorinq qrupu, eləcə də ƏƏSMN nəzdində Akkreditasiya olunmuş təşkilatların fəaliyyətini monitorinq qrupu sığınacaqlarla bağlı monitorinqlərini keçirib və ən yüksək səviyyələrdə təqdim edilib.

Sığınacaqlarda işləyənlər çox fədakar insanlardır. İstər Daxili İşlər Nazirliyinin, istər ƏƏSMN-in Sosial Xidmətlər Agentliyinin sığınacağı, istərsə də QHT-də çalışanlar. Onların əməyi qiymətləndirilməlidir.

**M.Zeynalova sığınacaqların sayının artırılmasıyla bağlı komitə sədrinin təşəbbüsünü dəstəklədiyini bildirdi:**

- DİN-in 1, ƏƏSMN-in Sosial Xidmətlər Agentliyinin də 3 sığınacağı var. Qalan 5 sığınacaq qeyri-dövlət əsaslıdır. Bizim qadın sığınacağı Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə fəaliyyət göstərir. Əlbəttə, dövlətin yardımını, dəstəyini də hiss edirik. Bəli, sığınacaqların sayının artırılmasına ehtiyac var və bu artıq zərurət halını alıb. Amma buna necə nail olunmalıdır? Məsələn, Amerika Birləşmiş Ştatlarında dövlət qeyri-hökumət təşkilatlarına sifariş verir, ehtiyaclar dəyərləndirilir, buna uyğun olaraq da QHT-lər sifarişi icra edir. Bunun üçün dövlət QHT sektoruna 70 faiz civarında yardım edir. Fikrimcə, bizdə də bu metoddan istifadə edilməlidir. Əvvəlcə mövcud vəziyyət və ehtiyaclar dəyərləndirilməlidir. Məsələn, hesab edirəm ki, təkcə qadınlar üçün deyil, kişilər üçün, əlillər üçün ayrıca sığınacaqlar olmalıdır. Keçid sığınacaqları da yaradıla bilər. Keçid sığınacaqları bölgələr üçün xarakterikdir. Təhlükəsizliyin təmini məqsədilə əvvəlcə keçid sığınacaqlara yerləşdirilənlər, təhlillər aparıldıqdan sonra digər sığınacaqlara köçürülə bilər. Paytaxtda da, bölgələrdə də buna ehtiyac var.

**Məlahət Rzayeva**

# Şagird və tələbələr üçün sağlam qida menyusu tərtib edilməlidir

## Bunu sağlam qida mütəxəssisləri, düzgün elmə yiyələnmiş texnoloqlar edə bilər



**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ölkə üzrə fəaliyyət göstərən ali təhsil və ümumtəhsil müəssisələrində yoxlamalar həyata keçirir. AQTA-nın məlumatına görə, cari ilin noyabr ayının 14-dən başlayan yoxlamalar çərçivəsində ali təhsil və ümumtəhsil müəssisələrində qidalanmanın qanunvericilikdə nəzərdə tutulan normalara uyğun təşkil edilməsi, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsi vəziyyətinin qiymətləndirilməsi, həmçinin yeyinti məhsullarının tədarük prosesi, onların saxlanması, daşınması, realizə olunması, markalanma və qablaşdırılmasına dair tələblərə əməl edilməsi yoxlanılır.**

Bununla yanaşı, mütəxəssislər tərəfindən təhsil müəssisələrində yeyinti məhsullarının hazırlandığı və saxlandığı sahələrin sanitar-texniki və sanitar-gigiyenik normalara uyğunluğuna yerində baxış keçirilir. Qeyd edilir ki, yoxlamalar zamanı qida təhlükəsizliyi sahəsində qanunvericiliyin pozulması ilə bağlı 23 ali təhsil müəssisəsi və 38 ümumtəhsil müəssisəsinin qida bloklarında nöqsanlar aşkarlanıb. Aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb, həyata keçirilən yoxlamaların nəticəsi ilə bağlı əlavə məlumat veriləcək.

Qida təhlükəsizliyi üzrə mütəxəssis Ağa Salamov "Şərq"ə açıqlamasında AQTA-nın fəaliyyətini təqdir etdiyini bildirib:

- AQTA sağ olsun ki, yoxlamalar aparır və nöqsanları aşkarlayır. Əminəm ki, qida blokunda nöqsanlar aşkarlanmış orta ümumtəhsil və ali məktəblərin bufet və yeməkxanalarında mikro-bioloji çirklənmə, qidanın otaq temperaturunda düzgün saxlanmaması, zibil vedrələri ilə qidaların yaxın məsafədə yerləşməsi, soyuducu sisteminin düzgün tənzimlənməməsi (müsbət 2-4 dərəcədə saxlanmalı olan qidaların müsbət 12 dərəcədə saxlanması), çarpaz çirklənmə (doğrama taxtası, bıçaqlar, eyni bıçaqla fərqli ərzaqların doğranması, qabların yuyulduğu sektor), şagird və tələbələrin orqanizminə ziyan verə biləcək qidaların satılması (istehlak müddəti bitmiş ərzaqlar) baş verib. Bunlar ən çox rast gəlinən nöqsanlardır və təəssüf ki, hər dəfə də eyni nöqsanların təkrarlandığını görürük. Nöqsanlar aşkarlansa da cavabdehlər onların aradan qaldırılmasına çalışmır. Nəticədə şagird və tələbələr qeyri-sağlam qidalanmaya məruz qalır ki, bu da onların sağlamlığına mənfi təsirini göstərir.

**A.Salamov şagird və tələbələrin sağlam qidalanması üçün vacib olan şərtləri açıqladı:**

- İlk növbədə, şagird və tələbələr üçün sağlam qida menyusu tərtib edilməlidir. Bunu sağlam qida mütəxəssisləri, düzgün elmə yiyələnmiş texnoloqlar edə bilər. Təklif gəlsə, mən bu menyunu könüllü şəkildə, təmənnasız tərtib edərəm. Sağlam qidanın əsasını sağlam ərzaqlar və pəhriz təşkil edir. Pəhriz deyərkən, kimsə düşünməsin ki, söhbət xəstələr üçün tərtib edilən pəhrizdən gedir, xeyr. Pəhriz, orqanizmin normal fəaliyyəti üçün vacibdir. Şagird və tələbələr enerji içkilərindən istifadə etməməlidir, təkrar emal prosesi keçmiş yağda qızardılan qidaları qəbul etməməlidirlər. Hamımız bilirik ki, içində kartof olan kökələri nəinki səhər qızartma tavasına tökülən yağda axşamadək, hətta axşamdan tavada qalmış yağda bişirirlər. Bu, orqanizmdə konserogen maddələrə birbaşa "dəvətdir". Orta məktəblərdə enerji içkiləri, bildiyim qədər satılmır. Ali məktəblərdəsə satılır. Amma şagirdlər dərsdən sonra istədikləri köşkdən enerji içkisi alıb içir. Ali məktəb tələbələri də həmçinin. Enerji içkiləri ona görə ziyandır ki, onların tərkibinə fosfor turşusu əlavə edilir, rəngli və qazlı olduqları üçün. Üzərində də yazılır: "soyuq halda için". Niyə bunu yazırlar, çünki soyuq halda içilində tərkibindəki kimyəvi maddə hiss edilmir. Enerji içkisini kimsə soyudulmamış içsə, ürəyi bulanacaq, içə bilməyəcək. Bu içkilər belə istehsal edilir. Guya ki, bədəni enerji ilə təmin edir deyə gen-bol reklam olunurlar. Enerji içkiləri ürəyi ritmini artırmaqla, təbii ritmi pozur. Bir müddət sonra isə verdiyi saxta enerjini orqanizmdən geri alır. Amma təbiisini. Orqanizmin təbii enerjisini bədəndən çıxarır. Gənclər arasında ürək çatışmazlığı, baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, yorğunluq... hamısı bu içkilərin hesabınadır. Amma qadağan edilmir onlar. Tələbələrin yediyi nədir, fast-fudlar. Hansı ki bu qida da orqanizmə ziyandır. Həm qazlı, rəngli içkilər, həm də quru yeməklər mədəbağırsaq sistemini pozur, onikibarmaq bağırsağın zədələnməsinə, mədədə eroziyanın yaranmasına səbəb olur, bunlar da nəticədə xərçəngə gətirib çıxarır. Qida təhlükəsizliyi təkcə məktəblə, univeristetlə həll ediləsi iş deyil. Valideynlər də övladlarına düzgün qidalanma qaydalarını öyrətməlidirlər. Əgər uşaq və ya gənc evdə daim qazlı içkilərə, fastfudlara, kartof-frelərə rəğbət görürsə, məktəbdə yeməsə də, evə gələndə yeyəcək. Valideynlər də sağlam qidalanma barədə məlumatlı olmalıdırlar. Valideynlərin ixtiyarı var ki, məktəb bufetinə daxil olub, ərzaqların vəziyyətinə baxsın. Dövlət qurumları da öz vəzifələrini icra edərək nəzarəti gücləndirməlidir. Ən əsası isə qeyri-sağlam qidaların təhsil müəssisələrinə yol tapmasına imkan verilməməlidir.

**A.Salamov qeyd etdi ki, şagirdlər məktəbə evdən yemək gətirməməlidir:**

- Əsasən ibtidai sinif şagirdlərinin məktəb çantasına valideynlər yemək qoyur. Amma bu, zülal tərkibli qidadırsa, yəni ət, toyuq, yağlı yeməkdirsə, qətiyyən olmaz. Bunları məktəbə gətirmək düzgün deyil. Çünki bir müddət qapalı vəziyyətdə, havasız yerdə saxlanan qidanın tərkibində dəyişiklik baş verir. Və bu, qarın ağrısı, ishal, ürəkbulanmadan tutmuş, zəhərlənməyə qədər səbəb ola bilər. Uşaq üçün məktəbə yemək qoymaq istəyirlərsə, bu ancaq quru qidalar, quru meyvələr, müxtəlif çərəzlər, meyvə, meyvə suyu olmalıdır. Kənardan gətirilən qidalarda da mikro-bioloji çirklənmə tez baş verir. Qida çantada çirklənməyə məruz qala bilər, uşaq yeməkdən əvvəl əllərini yumayacaqsa, yenə də qidanın çirklənməsi və bakteriyaların orqanizmə düşməsi baş verəcək. Şagird və tələbələrin sağlam qidalanmasının təşkili üçün birincisi, menyular düzgün tərtib edilməli, bufet və yeməkxanalar sağlam ərzaqlarla təmin edilərək, onlardan da sağlıqlı yeməklər hazırlanmalıdır.

**Məlahət Rzayeva**

---

## Elə insanlar var ki, təhsil strategiyasından anlayışı yoxdur

### Sadəcə olaraq hər iki imtahandan müvafiq nəticə topladığı üçün işə qəbul olunublar



**Azərbaycanda dövlət qulluğu ilə əlaqədar çox ciddi dəyişikliklər gedir.**

Artıq bununla bağlı strategiya təsdiqlənib. Bu strategiya çərçivəsində Dövlət İmtahan Mərkəzi kompetensiya modelinə keçməyi nəzərdə tutur. Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib ki, bunun üçün bizim ekspertlər və mütəxəssislər hazır olmalıdır.

**Təhsil eksperti Elşən Qafarov isə deyib ki, Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna qəbul imtahanları ilə bağlı ediləcək dəyişikliklərə bağlı konkret istiqamətləri açıqlamadığı üçün fikir bildirmək çətindir:** "Amma mənim təklifim odur ki, dövlət qulluğu kateqoriyalara yox, sahələrə bölünsün. Təhsil sahəsində işə qəbul olunan elə insanlar var ki, onların təhsil strategiyasından anlayışı yoxdur. Sadəcə olaraq hər iki imtahandan müvafiq nəticə topladığı üçün işə qəbul olunublar. Sinif üzü görməyən, əlinə qələm alıb jurnal yazmayan gənclər təhsil sahəsində məsləhətçi kimi işə düzəlirlər. Halbuki konkret tələb qoyulmalıdır ki, ən azı 3 il təhsilin idarə edilməsi üzrə stajı olan şəxslər bu vəzifəyə qəbul oluna bilər. Universiteti yeni bitirən gənc dövlət qulluğuna qəbul imtahanından müvəffəqiyyətlə keçib deyə 20-30 ilin məktəb direktoruna məsləhətçi təyin olunur. Bu, düzgün yanaşma deyil. Hesab edirəm ki, hər bir sahə üzrə işə qəbul imtahanları fərdi keçirilsə daha yaxşı olar. Suallar da həmin peşəyə uyğun, spesifik olmalıdır".

**Şəymən**

## Təcili yardım kafedrasının yaradılması alqışlayiqdir

### "Hər çağırışa gedən həkim reabilitasiya, kardioloji, reanimasiya tədbirləri göstərməyi bacarmalıdır



**"XXI əsrdə inkişaf edən elmlərin içərisində sürətlə dəyişən sahə tibb sektorudur. 20-30 il əvvəl ürək əməliyyatının qeyri-mümkün olduğunu düşünürdük. Amma indi açıq ürək əməliyyatı sadə əməliyyatdır".**

Bunu "Şərq"ə açıqlamasında tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı deyib.

O bildirib ki, Təcili yardım kafedrasının yaradılması alqışlayiqdir:

"Hər çağırışa gedən həkim nə ilə rastlaşacağından xəbərsizdir. Reabilitasiya, kardioloji, reanimasiya tədbirləri göstərməyi bacarmalıdır.

Ailə həkimi üzvlərin xəstəliklərini bilir. Ailə həkimi ilə bağlı tədrisin verilməsi də uğurlu olar".

*Qeyd edək ki, Azərbaycan Tibb Universitetində Təcili yardım kafedrası yaradılıb.*

**Aygün Tahir**

---



## Gömrük Komitəsi biznes mühitlə, vətəndaşla birbaşa işləyən qurumdur

### Bundan sonra qəbul edilən qərarların xalqın lehinə işləyəcəyi ehtimalı çox yüksəkdir

**"Yerlibazlıq kəlməsi Dövlət Gömrük Komitəsi ilə assimilyasiya olunmuş termin kimi istifadə olunurdu".**

**Bunu "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Rəşad Həsənov Dövlət Gömrük Komitəsində son zamanlar baş verən islahatlara münasibət bildirərkən söyləyib.**

Onun sözlərinə görə, hazırda bu yanaşma və vəziyyətə qarşı iradə sərgilənir: "Yəni bunun bir hesablaşma olmamasını arzulayıram. Əgər proses səmimi olarsa, bundan sonra qəbul edilən qərarların xalqın lehinə işləyəcəyi ehtimalı çox yüksəkdir. DGK biznes mühitlə, vətəndaşla birbaşa işləyən qurum olduğu üçün onun əməkdaşlarının bilikli, bacarıqlı olmaları və etik normaya riayət etmələri önəmlidir.

Təəssüf ki, bu istiqamətdə indiyə qədər qeyri-adekvat münasibətlər formalaşmışdı. Qeyd edilən filtrasiya son nəticədə əhalinin xeyrinə imkanlar yaradacaq. İslahatların isə hara gedəcəyini deyə bilmərəm.

Çünki proqnoz vermək çətindir. Nə qədər ki hökumət DGK-nı fiskal qurum kimi görür, çox irəliyə gedə bilməyəcəyik.

Bu müddət ərzində DGK inzibati və nəzarətedici struktur funksiyasını sərt formada yerinə yetirməklə büdcə qarşısında öhdəliklərini yerinə yetirməyə çalışacaq.

Bu isə zaman-zaman həm sahibkar, həm də vətəndaşla gömrük işçiləri arasında problemlərin yaranmasına gətirib çıxaracaq. Amma bununla belə gedişat müsbətə doğru irəliləyən bir proses kimi qiymətləndirilə bilər".

**Nihat Müzəffər**

# Əmək bazarında çox ciddi problemlər var

## Tələbələrin əksəriyyəti hüquqşünas, müəllim, həkim kimi məzun olur

**Elm və təhsil naziri Emin Əmrullayev hesab edir ki, tələbələrimizin iş tapmağı qaranlıq otaqda qara pişik axtarmağa bənzəyir. Onun sözlərinə görə, özəl və dövlət sektoru ilə tələbə təcrübə proqramlarının dəfələrlə artırılmasına ehtiyac var.**



***"Bu sahələrə tələbat olmadığı üçün bir sıra peşələr üzrə kadr çatışmazlığı yaranır, gənclər arasında işsizlik artmış olur"***

Nazir deyib ki, əmək bazarı ilə bağlı şəxsi mülahizələrə deyil, elmi əsaslara söykənən araşdırmalara ehtiyac var: "Özəl və dövlət sektorunda işə götürənlərlə ali təhsil müəssisələri arasında tələbə-təcrübə proqramlarının sayını dəfələrlə artırmağa ehtiyac var. İşəgötürənlər karyera mərkəzi ilə yaxın işləsələr, biz də nazirlik olaraq hər bir şəraiti yaradа bilərik".

**Əmək münasibətləri üzrə ekspert Anar Bayramovun "Şərq"ə açıqlamasına görə, orta məktəbi bitirən şagirdlərin əksəriyyəti üçün əsas məqsəd universitetə qəbul olmaqdır.** Bu zaman ixtisas və peşə seçiminə o qədər də əhəmiyyət verilmir. Əksər hallarda valideynlər də bu cür düşünürlər. Halbuki əsas məqsəd düzgün ixtisas seçimi olmalıdır. Gənclər elə ixtisas seçməlidirlər ki, gələcəkdə həmin sahədə özlərinə münasib iş tapa bilsinlər: "Əmək bazarının tələblərinə uyğun kadr hazırlanmalıdır. Əmək bazarında çox ciddi problemlər var. Tələbələrin əksəriyyəti hüquqşünas, müəllim, həkim kimi məzun olur. Bu sahələrə tələbat olmadığı üçün bir sıra peşələr üzrə kadr çatışmazlığı yaranır, gənclər arasında işsizlik artmış olur. Ölkə üçün əhəmiyyət kəsb edən kənd təsərrüfatı, yüksək texnologiyalar və s. kimi ixtisaslara maraq çox zəifdir. Ölkəmizdə tələb olunan peşələrə xaricdən işçi qüvvəsi gətirməyə məcbur oluruq. Nəticədə ali təhsilli məzunlarımız işsiz qalır. Problemin həlli yollarına gəlincə, ali təhsilin formalaşmasında və ixtisasların təyin olunmasında ölkənin sosial-iqtisadi inkişafının meyilləri, o cümlədən sahibkarlıq subyektlərinin tələbləri nəzərə alınmalıdır. Yəni bu gün sahibkarlar hansı kadra, ixtisasa ehtiyac duyursa və ya hansı peşələr vacibdirsə, onlar öyrənilməlidir. Ali təhsil müəssisələri ilə iş adamları arasında qarşılıqlı əlaqə olmalı, təcrübə mübadiləsi aparılmalıdır. Əmək bazarında tələbə uyğun olaraq təklif verilməli və ixtisaslı kadr yetişdirilməlidir. Azərbaycandakı şirkətlərdə kifayət qədər vakansiyalar var ki, işə götürənlər aylarla, illərlə bu işlərə kadr tapa bilmirlər. Ali məktəb seçimi də ən azı ixtisas seçimi qədər əhəmiyyətlidir. Müəssisə və şirkətlər işçi seçərkən daha yaxşı təhsil verən, tələbələrinə seçdikləri ixtisası daha yaxşı öyrədən universitetlərə üstünlük verirlər".

**Ekspert hesab edir ki, dövlət universitetlərində bazarda tələb edilməyən bəzi ixtisaslara məhdudiyyət qoyulmalı, ya da universitetlər özləri Təhsil Nazirliyinə bazarın tələblərinə uyğun plan yerləri təqdim etməlidirlər:** "Universitetlərin əksəriyyəti təhsil deyil, yalnız diplom verir. Halbuki özəl sektor inkişaf etdikcə, ölkəmizdə diplomlu insanlara yox, mütəxəssislərə ehtiyac olacaq. Bu zaman insanlar diplom xatirinə oxumayacaq, bazarın tələb etdiyi hansısa sənətin, peşənin arxasınca gedəcək".

A.Bayramov deyib ki, iş tapmaqda vacib olan daha bir amil kadrların öz ixtisaslarını yaxşı bilmələri ilə bağlıdır. Tələbələr universitetlərdə oxuduqları zaman öz ixtisaslarını dərindən öyrənməli, müasir dərsliklərdən, yeni ədəbiyyatlardan istifadə etməlidirlər: "Digər mühüm məsələ isə kompüter texnologiyaları ilə bağlıdır. Bildiyimiz kimi, bu gün əksər müəssisə və şirkətlərdə kompüter texnologiyalarından istifadə olunur. Ona görə də kompüter proqramlarını və internetdən istifadəni ən aşağı səviyyədə olsa belə, bilmək lazımdır. Çünki kompüterdən istifadəni bilmədən iş tapmaq çox çətindir. Bundan əlavə, xarici dil bilmək hər bir məzun üçün əlavə üstünlük hesab olunur. Hazırkı təhsil sistemi isə praktik vərdişləri olan məzun yetişdirə bilmir. Bu da həmin məzunların əmək bazarına daxil olmasında problemlər yaradır. İşəgötürən istəyir ki, qəbul elədiyi adam işə peşəkar səviyyədə başlasın. Amma bizim təhsil sistemimiz hələ belə kadr yetişdirə, mütəxəssis hazırlaya bilmir. Bəzən işə qəbulla bağlı müxtəlif qurumlarda keçirilən imtahanlar da qeyri-obyektiv nəticələrə görə gənclərdə ümidsizlik yaradır. Gənclər ən yaxşı halda tanışlıq və tapşırıq vasitəsilə arzuladıqları şirkətlərdə, rəsmi qurumlarda işə düzəlmənin yollarını axtarırlar. Halbuki böyük şirkətlər öz sahələri üzrə peşəkar kadra sahib olmaq üçün həmin ixtisas üzrə universitetlərin son kurslarında oxuyan tələbələr arasında seçim etməli, müsahibə keçirməli və onları işə götürməlidir. Çünki Azərbaycanda bu təcrübədən xarici şirkətlər daha çox istifadə edirlər. Onlar öz işçilərini həm də bu yolla seçirlər. Yerli şirkətlər, nazirliklər də bu vasitə ilə uğurlu məzunları öz yanlarına cəlb edə bilərlər".

**Şəymən Bayramova**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3735



## İstilik sistemi dağıdılıb

Heyvanları isitmək üçün odun yandırırlar

**Ukrayna müharibəsi heyvanxanadakı heyvanların həyatını da təhlükə altına salıb.**

Rusiya ordusunun Ukraynanın enerji təsisatlarını vurması nəticəsində Kiyev heyvanxanasının istilik sistemi də dağıdılıb. "Şərq" "NTV.com"a istinadən bildirir ki, heyvanxana əməkdaşları heyvanlar soyuqdan donmasın deyə, odun yandıraraq qəfəsləri isidirlər. Elektrik enerjisi tez-tez kəsildiyindən, elektrik verilməsində uzun fasilələr yarandığından elektrik plitələrinə ümid etmək olmur. Heyvanxana rəhbərliyi çıxış yolunu odun ehtiyatı toplamaqda və qəfəsləri odun yandırmaqla isitməyə üstünlük verir. Hazırda heyvanxanada böyük odun sobaları qurulub. Ziyarətçilər də bunları görür. Heyvanxananın müdiri Kiril Trantin deyib ki, Kiyevdəki heyvanxana 1909-cu ildə açılıb. Bəzi heyvanlar soyuq hava şəraitində yaşaya bilmir. Soyuğa dözümsüz heyvanlar üçün odun sobalarını qalamağa məcburdurlar. Heyvanxana rəhbərliyi odunu satın alır. Kiyev heyvanxanasında hazırda 200 növdə 4 minə yaxın heyvan saxlanılır. Odun çatışmazlığı səbəbindən ölkənin digər bölgələrindəki heyvanxanalardan heyvanları da Kiyev heyvanxanasına gətiriblər. Əməkdaşlar qışa hazırlıq çərçivəsində yem ehtiyatı da toplayıblar.

**Məlahət**

## Misirdə 2500 il əvvələ aid sərdabələr tapılıb





**Arxeoloqlar Misirin Damietta əyalətinin Tel Əl-Deyir qədim yaşayış məskənində 2500 il əvvələ aid sərdabələr aşkar ediblər. Bu mühüm arxeoloji tapıntı Qədim Misir fironlarının 26-cı sülaləsinin dövrünü araşdırmaq üçün yeni imkanlar yaradır.**

Azərtac xəbər verir ki, Misirin Qədim Abidələr Ali Şurasının sədri Mustafa Vəziri sərdabələrdən qızıl əşyalar, Qədim Misir tanrıları Osiris, Anibus və Horusun kiçik heykəllərin, heyvan təsvirləri olan artefaktların, kanopik qabların, dəfn amuletlərinin aşkar edildiyini bildirib. O əlavə edib ki, alimlərin apardıqları tədqiqatların sonunda bu arxeoloji tapıntılar Böyük Misir Muzeyinə təhvil veriləcək.





# Rekorda düşəcək

## 2023-cü il dünyada ən isti il olacaq





**Böyük Britaniya Birləşmiş Krallığı Meteoroloji Ofisinin proqnozuna görə, 2023-cü il çağdaş tarixin ən isti illərindən biri olmaq rekorduna imza atacaq. Meteoroloji Ofis 2023-cü ildə Yer kürəsində orta istilik səviyyəsinin ötən illərlə müqayisədə 1,2 dərəcə daha yüksək ola biləcəyi, dünyada kəskin temperatur yüksəlişi səbəbiylə meşə yanğınları, sel və bir çox başqa təbii fəlakətlərin yaşanacağı barədə xəbərdarlıq edib.**

Ofisin açıqlamasında isti iqlim şəraitinin ən aşağısı 10 il davam edəcəyi bildirilib. 1850-ci ildən indiyədək qeydə alınan iqlim normalarına baxıldığında, Sakit Okeanda qlobal istiləşməni yaradan "El Nino" iqlim modelinin hakim olması səbəbiylə ən isti il 2016-ya aiddir. Mövzu ilə bağlı açıqlama verən professor Adam Şeyt "Qlobal istiləşməni artıracaq bir "El Nino" baş verməzsə, 2023-cü il istilik rekorduna imza atmayan il ola bilər. Lakin atmosferdə zərərli qazların miqdarı sürətlə artır, bunu gözə alaraq bizi dəhşətli istilər gözlədiyini söyləyə bilərik" deyib. 2023-cü ildə qlobal istiləşmənin artacağı proqnozunu əsas tutan meteoroloji ofisinin başqa bir alimi Nik Dunstonun fikrincə isə "son 3 ildəki qlobal istiləşmələr "La Nina"nın müddətinin uzanmasıyla bağlıdı. Çünki "La Nina"nın keçici soyutma təsiri də var. Lakin gələcək il "La Nina" təsirini azaldacaq, bu isə 2023-cü ildə iqlim istiləşməsinin 2022-yə nisbətən daha yüksək olmasına yol açacaq". Alimlər bildirib ki, qlobal istiləşmənin 10 ildir 1 dərəcə və ya 1 dərəcədən az artıq olması temperatur fərqliliklərini çox da hiss etməyə imkan vermirdi. Lakin Şimal qütbündə bəzi yerlərdə temperaturlar bir neçə dərəcə yüksəlib. Və bu, qlobal istiləşməni daha artıq hiss etməyimizə səbəb olacaq. Qeyd edilir ki, "La Nina" Sakit okeanın ekvatorial qurşağında okean suları temperaturunda əmələ gələn dəyişikliklərdir ki, qarışıq iqlimin yaranmasına səbəb olur. "La Nina" Sakit okean üzərində yaranan hava axınına verilən addır. Okean sularındakı temperatur dəyişikliyinə və bunun davamı olaraq da iqlim dəyişikliyinə səbəb olur. Bu hava axını ötən əsrlərdə də özünü göstərib və planetdə iqlim dəyişiklikləri yaradıb. "La Nina" hava axını 5 aydan artıq davam edir. "La Nina"ya nisbətən "El Nino" hava axını isə Sakit okeanda daha çox, Atlantik okeanında isə daha az qasırğa meydana gətirir. BMT-nin araşdırmasına görə, 1997-1998-ci illərdə "El Nino" okean ölkələrinə 32 milyard dollarlıq zərər vurub, minlərlə insan bu hava axınını törətdiyi qasırğa və sel səbəbiylə həlak olub.

**Məlahət**



# Mbappedən sərt sözlər!

## Paltardəyişmə otağındakı söhbətlər üzə çıxdı



**Qətərdə keçirilən Dünya Çempionatı Argentinanın qələbəsi ilə başa çatıb. Yalnız fransalı Mbappe penaltilər seriyası nəticəsində dünya çempionu olan Argentinaya müqavimət göstərməyə çalışsa da, gənc ulduzun səyi xoşbəxt sonluq üçün yetərli olmayıb. Kilian Mbappenin Argentina ilə matçın fasiləsində paltardəyişmə otağında danışığı üzə çıxıb. Məlum olub ki, Mbappe komanda yoldaşlarına çox ağır sözlər deyib.**

"Daily Mail" oxucularına Kilian Mbappenin matçın sonunda çox məyus olduğunu və Fransa Prezidenti Makronun həmin an ulduza təsəlli etmək üçün sahəyə endiyini çatdırıb.

Xəbərdə Mbappenin Makrondan küsdüyü və laqeyd münasibət sərgilədiyi bildirilib. Fransa Prezidenti PSJ-nin ulduzunun ikinci medalı və qızıl ayaqqabını aldığı oyundan sonrakı təqdimatı zamanı Mbappeyə bir daha təsəlli verməyə çalışıb.

Makronun onu qucaqladığı anlarda Kilian Mbappenin bədbəxt görünüşü diqqətdən yayınmayıb.

Argentina matçında 3 qol vursa da kuboku qazana bilməyən Kilian Mbappenin Argentina matçının fasiləsində komanda yoldaşlarını motivasiya etmək üçün çıxış etdiyi açıqlanıb. Mbappenin ikinci hissədən əvvəl komanda yoldaşlarının daha istəkli olması lazım olan çıxışları Fransa mətbuatında geniş əks-səda doğurub.

"RMC Sport" Argentina-Fransa matçının fasiləsində Mbappenin çıxışlarını oxucularına çatdırıb. Bundan başqa, ehtiyat qapıçı Stiv Mandanda və Fransa millisinin baş məşqçisi Didye Deşamın çıxışları da üzə çıxıb.

Kilian Mbappe Argentina matçının fasiləsində aşağıdakı çıxışı edib:

"Bu, Dünya Kubokunun finalıdır, bu, ömür boyu davam edəcək bir oyundur. Belə oynasaq, heç vaxt qalib gələ bilməyəcəyik və daha da pisi, indi meydançaya qayıdacağıq. Ya onlara icazə verəcəyik, ya da meydana çıxıb mübarizəmizlə cavab verəcəyik. Başqa heç nə etməyəcəyik uşaqlar, biz onlara mücadilə ilə cavab verəcəyik. Dünya Çempionatının finalıdır. Onlar iki qol vurdular. Biz geridəyik! Geridəyik, amma geri qayıda bilərik. Uşaqlar, ayılın, bunu dörd ildən bir yaşayırıq".

Fransanın ehtiyat qapıçılarından olan Stiv Mandanda da Argentina matçının fasiləsində komanda yoldaşları qarşısında çıxış edib. Təcrübəli qapıçı, "İndi onlardan 2-0 geridəyik. Bu xəta hamımızındır, uşaqlar. İkinci hissədə oyunu tərsinə çevirmək olar, amma meydana fərqli əhval-ruhiyyə ilə çıxmaq lazımdır. Bu belə oynamaqla mümkün deyil. Lənət olsun!" deyə bildirib.

Fransa millisinin baş məşqçisi Didye Deşam isə ikinci hissədən əvvəl daha sakit davranaraq futbolçularına xəbərdarlıq edib. Didye Deşam əlavə edib ki, "Uşaqlar, əsəbiləşmədən sizə deyəcəm. Aradakı fərqi bilirsinizmi? Onlar Dünya Kuboku oynayırlar, əksinə, biz elə oynamırıq", deyə bildirib. Deşamın bu çıxışdan sonra soyunub-geyinmə otağında əli ilə var gücü ilə masaya zərbə vurduğu bildirilib.

**Turan**

## 10 yaşlı uşaq anasını güllələdi

Uşaq ona bahalı oyun sistemi almaqdan imtina edən anasından qisas alıb



**"People" nəşrinin məlumatına görə, uşaq ona bahalı oyun sistemi almaqdan imtina edən anasından qisas alıb.**

44 yaşlı Kiana Mann evində yaxın məsafədən gözünə dəyən güllədən ölüb. Qadının on yaşlı oğlu qətldə şübhəli bilinir. Atışmadan sonra oğlan əvvəlcə silahı gizlətməyə çalışıb, sonra isə böyük bacısına anasının öldüyünü deyib və qız xilasedicilərı çağırıb.

Qətldən dərhal sonra uşaq polisə anasını təsadüfən vurduğunu deyib. Ona ailəsi ilə birlikdə evdə qalmasına icazə verilib. Ertəsi gün yaxınları polisə zəng edərək uşağın doğru deməsindən şübhələndiklərini bildiriblər. O, xalasına deyib ki, əlində silahını anasına qəsdən tuşlayıb. (Milli.Az)

Qohumlar müstəntiqlərə izah ediblər ki, uşaq bütün həyatı boyu qəzəbi idarə etməkdə problem yaşayıb. Dörd yaşında olanda, oğlan köpəyini quyruğundan tutub və it ağrıdan ulamağa başlayana qədər fırlayıb. Bir dəfə isə o, şara yanar maye dolduraraq evi yandırıb. Yaxınlarının dediyinə görə, uşağın söhbət etdiyi beş xəyali dostu olub. Onların arasında iki bacı, yaşlı qadın və iki kişi də olub.

Polis müəyyən edib ki, uşaq ananı virtual reallıq texnologiyası ilə bahalı oyun sistemi almaqdan imtina etdiyi üçün öldürüb. Səhər saat yeddi radələrində uşaq kilidli seyfdən silahı götürmək üçün Mannın açarlarından istifadə edib. O, müstəntiqlərə deyib ki, silahı anasının onu lazım olduğundan yarım saat tez oyatmasına əsəbiləşdiyi üçün götürüb. Bundan əlavə, uşaq oyun sistemi almağa icazə vermədiyi üçün üzülüb. Qətldən qısa müddət sonra uşaq "Oculus Virtual Reality Headset" almaq üçün anasının "Amazon" hesabına daxil olub.

Uşaq böyüklər kimi ittiham edilib: qəsdən adam öldürmə maddəsi ilə. O, 50 min dollar girov qarşılığında saxlanılıb.

## Quş qripi: Avropa tarixinin "ən dağıdıcı" epidemiyasını yaşayır



**Bir ildən artıqdır ki, Avropada quş qripi epidemiyası tüğyan edir.**

Azərtac xarici KİV-lərə istinadla xəbər verir ki, bu, indiyədək "Köhnə qitə"də müşahidə olunan "ən dağıdıcı" quş qripi epidemiyasıdır.

Səhiyyə orqanlarının son məlumatlarına görə, 2021-ci ilin oktyabrından 2022-ci ilin sentyabrınadək qitənin 37 ölkəsinin virus aşkar edilən 2500-dən çox təsərrüfatında təqribən 50 milyon ev quşu (toyuq, ördək, hinduşka və sair) məhv edilib. Lakin rəqəmin bundan daha böyük olduğu ehtimal edilir.

*Qeyd olunur ki, epidemiyanın yayılma sürəti azalmır, əksinə, qışın gəlişi ilə əlaqədar daha da artır.*

## Konsertə biletlər 130 manatdan başlayır

Bülent Ersoy üçün Bakıda özəl kulis hazırlandı



**Yeni il günü Bakıda səhnəyə çıxmağa hazırlaşan türk sənətçi Bülent Ersoy Bakıya erkən gələcək.**

**Olay xəbər verir ki, müğənni 29 dekabrda təşrif buyuracağı paytaxtımızda 1 həftə qalacaq. Digər maraqlı nüans isə Ersoyun rayderi ilə bağlıdır. Onun üçün çıxış edəcəyi məkanda özəl kulis hazırlanıb. Hətta sənətçinin rahatlığı üçün hamam otağı da inşa edilib.**

***Qeyd edək ki, konsertə biletlər 130 manatdan başlayır.***

## Məşhur aparıcı 119 milyona villa aldı



**Amerikalı aktrisa-aparıcı Ellen Deceneres yeni ev alıb.**

**Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, aktrisanın malikanəsi Kaliforniyada yerləşən Karpinteria şəhərində yerləşir. Onlar villaya 70 milyon dollar (təxminən 119 milyon manat) vəsait ödəyiblər.**

## Milyarderin nəvəsi toyunda gəlini görüb ağladı



**"Yük maşınlarının kralı" və ya "yükdaşımalar kralı" kimi tanınan milyarder, iş adamı Lindsey Foksun nəvəsi Harri Foks uzun müddətdir bərabər olduğu Kristen Fouler ilə evlənib.**

**Lent.az xəbər verir ki, cütlüyün 50 milyon dollarlıq villada keçirdiyi toy məclisinə məşhur iş adamları, idman və mədəniyyət sahəsindən tanınmış simalar qatılıb. Məclis səhərə kimi davam edib.**

**Kristeni dəbdəbəli gəlinlikdə görən və həyəcanını gizlətməyən Harri göz yaşlarına hakim ola bilməyib. Onu sağdışları sakitləşdirməyə yardımçı olublar.**